

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev: Azərbaycanın rəmzi



8

№ 228 (6911)

# SƏS

13 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

## Xalqın etimadını qazanan LİDER!



5

# Erməni vəhşiliyi bəşəriyyətin tarixinə ləkədir



14

### Tahir Budaqov: YAP-ın prezidentliyə namizədi partiyanın İdarə Heyətinin iclasında irəli sürüləcək



4

### Prezidentin xüsusi nümayəndəsi: "Ağdam şəhərində 5 məhəllə salınacaq"



9

### Bank kartlarından pulları necə oğurlayırlar?



10

## Sözünə sadiq Azərbaycan



11

## Zəlzələ həyat və bina evlərinin qiymətinə necə təsir etdi?



13

# Azərbaycan var olduqca Heydər Əliyevin ideyaları əbədi yaşayacaq!

## Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib

**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötür. Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu. Azərbaycanın Dövlət Himni səsləndirildi.**

Dövlətimizin başçısı İlham Əliyev Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andı, məzarı üzərinə gül dəstələri qoydu. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, ordu quruculuğu bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı.









Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edildi.

Sərəncamda da qeyd olunduğu kimi, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli Bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Dövlətimizin başçısı, qalib sərkərdə İlham Əliyev böyük və müdrik xalqımıza bu il sentyabrın 19-da növbəti Qələbənin sevincini yaşatdı. Dövlət Bayrağımızı əzəli və əbədi torpaqlarımızda - Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ucaltmaqla xalqımızın arzularını çin etdi. Müstəqil Azərbaycanın suverenliyi tam bərpa olundu.

Görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib. Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

# İtaliya qəzeti Azərbaycanın və Ermənistanın sülh istiqamətində atdıqları addımlardan yazıb

İtaliyanın aparıcı kütləvi informasiya vasitələrindən olan "Formiche" qəzeti Azərbaycanın və Ermənistanın münasibətləri normallaşdırmaq və sülh sazişinə nail olmaq istiqamətində atdıqları birgə addımların əhəmiyyətindən yazıb. Məqalədə iki ölkənin regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətdən istifadə etmək barədə razılığa gəldiyi bildirilir. Qeyd olunur ki, Azərbaycan və Ermənistan suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bəyan edib.

Vurğulanır ki, iki ölkə, eyni zamanda, humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım kimi qarşılıqlı olaraq hərbi əsirləri azad etməyi öhdəlik götürüb. Azərbaycan və Ermənistan yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələrin davam edəcəyini bəyan edib. Tərəflər beynəlxalq ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək və regiona müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırıb.




Bundan başqa, yazıda Ermənistanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycanın namizədliyini dəstəklədiyi vurğulanır. Azərbaycanın isə Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəklədiyi bildirilir.

Məqalədə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin Azərbaycanla Ermənistan arasında əldə edilən razılaşmanı alqışladığı qeyd olunur. Eyni zamanda, İtaliya Baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayaninin də iki ölkə arasında münasibətlərin yeni mərhələsi üçün əldə olunan razılaşmanın əhəmiyyətini vurğuladığı bildirilir.

Nazirin fikirlərindən belə bir sitat gətirilib: "İtaliya bu iki qonşu ölkənin münasibətlərinin hər anında onların yanında olacaq. İtaliyanın səmimi məmnuniyyətlə təqdir etdiyi bir razılaşma ilə illərdən bəri bir-birinə qarşı olan iki ölkə qətiyyətlə onları tezliklə tam və qəti olmasını istədiyimiz sülhə aparacağına ümid etdiyimiz bir yola gedir. Onları Avropaya daha da yaxınlaşdıracaq yeni mərhələ biz avropalıların hamısına əməkdaşlıq və dinc işbirliyi üçün sahələri genişləndirməyə imkan verəcək".

Yazıda, həmçinin Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 17 noyabr tarixli qərarında Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bir daha təsdiq edildiyi xatırladılır.

# Azərbaycanın iqtisadi-siyasi gücünü, mövqeyini əks etdirən müsahibə

## PREZİDENT İLHAM ƏLİYEV: "Saziş imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq"



Heç kəsə sirr deyil ki, Ermənistan dövləti 30 ilə yaxın bir müddətdə dünya ictimaiyyətinin gözü qarşısında öz təcavüzkar siyasətini həyata keçirib, Azərbaycan xalqı erməni millətçiləri tərəfindən soyqırımına və etnik təmizləmələrə məruz qalıb. Azərbaycan 2020-ci ildə, 44 günlük Vətən müharibəsindən sonra regionda yeni reallıqların yaradılmasında öz imkanlarını səfərbər edib və bu gün Cənubi Qafqazda davamlı sülhün təmin olunması, habelə postmüharibə dövrünün mükəmməl idarə olunması istiqamətində əməli fəaliyyət göstərir. Qazanılan Zəfər təkcə silahın gücü deyil, Prezidentin, millətin liderinin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun məntiqi nəticəsi idi. Və Prezident İlham Əliyevin əməli addımları, dünyanın nüfuzlu telekanallarına müsahibələrində Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə onların başa düşəcəyi dildə çox böyük qətiyyətlə çatdırması, əlbəttə ki, qlobal auditoriyanın diqqətindən kənarda qalmır.

Və Prezident İlham Əliyevin "Euronews" televiziyasında yayımlanan müsahibəsi həm informasiya yükü, həm də yeni mesajlar baxımından zəngin olmaqla yanaşı, həm də istər Ermənistan rəhbərliyi, istərsə də Qərb dövlətlərinin nümayəndələri tərəfindən səsləndirilən qeyri-adekvat açıqlamalara tutarlı cavabdır. Dövlət başçısı müsahibəsində Ermənistanın işğal siyasətinin nəticələri, torpaqlarımızın öz gücümüzə azad edilməsi və Ermənistanla sülh sazişinin imzalanması perspektivləri barədə də fikirlərini ifadə edib. Üç ilə yaxındır ki, davam edən və iki istiqamətdə aparılan Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşması prosesinin uzanması Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə əlaqədardır. Belə ki, 2021-ci ilin dekabrından başlayaraq sülhyaratma prosesində vasitəçilik edən Avropa İttifaqının moderatorluğu ilə baş tutan danışıqların nəticə verməməsinin əsas səbəbi Ermənistanın mövqesizliyidir. Bu ölkə ikiüzlü siyasətini davam etdirməklə, nələrəsə nail olmaq fikrindədir. Bir yandan Brüssel prosesinə sadiq olduğunu bildirən, hətta görüşlərdə proqressiv irəliləyişlərə belə "hə" deyən rəsmi İrəvan sonradan tamam fərqli şeylər danışır. Bir tərəfdə sülhdən, ərazi bütövlüyünün tanınmasından, delimitasiya və demarkasiyanın vacibliyindən bəhs açan Ermənistan nəticədə üzərinə götürdüyü öhdəliklərə riayət etmir. Bu qeyri-müəyyənlik isə bütövlükdə, prosesin sürətlənməsini, sülhün və təhlükəsizliyin təmin olunmasını ləngidir. Amma bu kimi "mövqe" Ermənistan üçün yaxşı gələcək vəd etmir. Prezident İlham Əliyev müsahibələrində, mötəbər tədbirlərdə bildirib ki, əgər Ermənistan sülh istəmirsə sülh olmayacaq.Prezident İlham Əliyev müsahibələrində, mötəbər tədbirlərdə dəfələrlə bildirib ki, onlar prosesi ləngidə, artıq müəyyən olunmuş danışıqlar formatını razılığa gəlmək üçün yox, prosesi sonsuz etmək üçün istifadə edə və nəyi isə gözləyə bilərlər.Amma işğalçı ölkə və ona havadar olanlar bilməlidirlər ki, 30 illik Qarabağ həsrətinə Qalib Lider, Ali baş Komandan, Prezident İlham Əliyev cənablarının "Dəmir yumruq" siyasəti ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə cəmi 44 gündə son qoydu. Və Azərbaycvn Prezidenti İlham Əliyev hər zaman bildirir ki, sülhün qorunması, sabitliyin möhkəmləndirilməsi, dinc birgə yaşayışın təmin edilməsi, barışıq gündəliyinin irəli sürülməsi regionda əməkdaşlığa və iqtisadi inkişafa sərmayə qoyuluşu üçün real zəmin yaratmış olacaq. Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində Ermənistan ilə Azərbaycan arasında sülhə nail olunması ilə bağlı sualı cavablandıraraq bildirib ki,

### SÜLH SAZİŞİNİN İMZALANMASINA HƏR HANSI CİDDİ MANEƏ GÖRMÜRƏM

Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində bu barədə danışarkən deyib ki, hazırda Qarabağ məsələsi bitdikdən sonra Ermənistan bizimlə razılığa gəlməkdə daha həvəsli olacaq. Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil: "Həqiqətən də Ermənistanın hələ sentyabrın 11-də onlara təqdim olunmuş sülh sazişi layihəsinə iki ay yarım sonra cavab verməsi rəsmi İrəvan süni olaraq prosesi ləngitmək istəyindən xəbər verir. Cənab Prezident də Qarabağdakı qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə Ermənistana danışıqlara getməyə mane olan əsas amilin ardan qaldırıldığını xüsusi olaraq vurğulamaqla faktiki olaraq Ermənistan rəhbərliyini bundan sonra daha cəsarətli və qətiyyətli olmağa dəvət etmiş oldu".

Prezident müsahibədə həmçinin Qarabağdan köçən ermənilərlə bağlı fikirlərə də aydınlıq gətirməklə bir qism dövlətlərin əsassız iddialarına da cavab vermiş oldu: "Bütün dünyaya məlumdur ki, erməni sakinlər Qarabağı könüllü tərk ediblər. Onların qalıb yaşaması üçün heç bir maneə yox idi. Azərbaycan dövlətinin Qarabağ erməniləri ilə bağlı verdiyi bəyanatlar, həmçinin atdığı addımlar bunu bir daha sübut edir. Qayıtmaq istəyənlər üçün elektron qeydiyyat portalı yaradılıb. Amma bundan fərqli olaraq Qarabağ hadisələri başlayarkən soydaşlarımız Ermənistan ərazisindən məcburi şəkildə qovuldu, bir çoxu qətl edildi, əmlakları talan olundu, mədəni-dini abidələrimiz məhv edildi. Təbii ki, bu insanların da öz torpaqlarına qayıtmaq hüququ tanınmalıdır".Dövlət başçısı bununla da beynəlxaq ictimaiyyətin diqqətini Ermənistandan qovulan Azərbaycanlılar məsələsinə yönəltmiş oldu. Xüsusilə indiki mərhələdə bu məsələnin diqqətlərdə saxlanılması olduqca önəmlidir. Ermənilərin qayıdıb yaşamasının zəruriliyini deyən dövlət başçısı bildirib ki, bu məsələdə bar-bar bağıran ayrı-ayrı dairələr Ermənistandan qovulmuş Azərbaycanlıların məsələsini də öz gündəliklərinə daxil etməyə borcludurlar.

### TƏKLİFDƏ ONLARIN HÜQUQLARINI DA NƏZƏRƏ ALMIŞDIQ

Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində Qarabağ ermənilərinə edilən təkliflərlə bağlı bildirib ki, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir və ölkəmizdə bir çox etnik qruplar var: "Bu etnik qrupların bəziləri, bir neçəsi, onlara mənsub olan insanlar Qarabağda erməni əhalisindən qat-qat çoxdur. Onların hamısı sülh içində yaşayır, onlar bütün hüquq və təminatlardan faydalanırlar. Bizim Qarabağ ermənilərinə etdiyimiz təklifdə hansı ki, yeri gəlmişkən ictimai şəkildə açıqlanmışdır, biz, həmçinin onların hüquqlarını da nəzərə almışdıq". Dövlət başçısı onu da söyləyib ki, Qarabağ ermənilərinin dil, tədris, din, bələdiyyə hüquqları nəzərə alınıb və onlar bələdiyyə seçkiləri vasitəsilə öz nümayəndələrini seçə bilərlər və orada yaşamağa davam edə bilərlər: "Tərk etmək qərarı onların öz qərarı idi və bizim indi əldə etdiyimiz məlumata əsasən bu dırnaqarası "dağlıq qarabağ respublikası"nın dırnaqarası "sabiq rəhbərləri"nin qəsdən etdiyi hərəkət idi. Onlara oranı tərk etməyə ehtiyac yox idi, lakin onlar tərk etmək qərarını verdikdə biz onları dayandıra bilməzdik".

Dövlət başçısı, həmçinin vurğulayıb ki, onlar oranı sülh şəraitində tərk etsinlər deyə, onlara maksimum dərəcədə rahat şərait yaratdıq: "Azərbaycanlılara qarşı tam əksi edilmişdir. Onlar otuz il bundan əvvəl ya qətlə yetirilmiş, ya da deportasiya olunmuş, işgəncələrə məruz qalmış, həbs edilmişdir və onların bəziləri yüksək dağlıq əraziləri aşmaq məcburiyyətində qalaraq həmin ərazilərdə donub ölmüşdür. Bu sənədlərlə təsdiq edilib. Qarabağ bölgəsinin ermənilərinin Ermənistana daxil olmaları da sənədləşdirilmişdir və hər şey humanitar standartlara əsasən edilmişdir". Qayıtmaq istəyən ermənilərin Azərbaycanın açdığı elektron portalda qeydiyyatdan keçərək geri qayıtmaq, Azərbaycan vətəndaşlığını qəbul etmək istədiklərini bildirməli olduqlarını vurğulayan dövlət başçısı qeyd edib: "Onların bir neçəsi artıq vətəndaşlıq üçün müraciət edib və hazırda onların müraciətlərinə baxılır. Bəzi ermənilər Qarabağda qalmağa qərar verdilər və indi bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Miqrasiya Xidməti onların qeydinə qalır, onları qeydiyyata salır".

Dövlət başçısı onu da bildirib ki, əgər onlar Azərbaycanda erməni azlığı məsələsini əks etdirmək istəyirlərsə, onda biz də otuz il əvvəl Ermənistandan qovulmuş azərbaycanlı azlığı məsələsini daxil etmək istərdik. Özü də Ermənistanda azərbaycanlıların sayı ermənilərin Azərbaycandakı sayından daha çoxdur və təxminən 300 min insan təşkil edir: "Bir sözlə, mövqeyimiz belədir ki, həmin məsələ qarşılıqlı olmalıdır. Biz iki milli azlığın məsələsini, onların hüquqları və təhlükəsizliyini, o cümlədən qayıtmaq hüququnu qeyd edək. Yəni, təkcə ermənilərin Azərbaycana qayıtması deyil, o cümlədən azərbaycanlıların Ermənistana qayıtması məsələsini qoyuruq". Prezident İlham Əliyev, həmçinin onu da vurğulayıb ki, azərbaycanlıların 30 il əvvəl qovulması və ermənilərin iki ay əvvəl ölkəmizi tərk etmək qərarı arasında fərqin əhəmiyyəti yoxdur. Fakt, sadəcə, ondan ibarətdir ki, bunlar qarşılıqlı olmalıdır. Yaxud da ki, biz sülh sazişində bu məsələni qeyd etmirik: "Bir sözlə, bu vaxta qədər, biz həmin məsələ ilə bağlı Ermənistandan hər hansı aydın anlaşma görmədik. Əgər Ermənistan hər iki milli azlığa eyni yanaşmanın tətbiq edilməsinə razılaşarsa və ya onu tam əks etdirməsə, onda sülh əldə oluna bilər, çünki həmin məsələ bizimlə danışıqlar aparan Ermənistan üçün əsas maneə idi. Bir sözlə, görəcəyik, bundan sonra necə olacaq. Səmimi desək, mən hazırda məntiq nöqteyi-nəzərindən sülh sazişinin imzalanmasına hər hansı ciddi maneə görmürəm".

### ERMƏNİSTAN NƏ BU GÜN, NƏ DƏ GƏLƏCƏKDƏ ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜ SUAL ALTINA QOYMASIN VƏ AZƏRBAYCANA QARŞI HƏR HANSI ƏRAZİ İDDİALARINDAN TAM ƏL ÇƏKSİN

Prezident İlham Əliyev "Euronews"a telekanalına verdiyi müsahibəsində qeyd edib ki, məhz Azərbaycan işğaldan və etnik təmizləmədən əziyyət çəkib. Bir milyon azərbaycanlı Ermənistan hökuməti tərəfindən deportasiya edilib. Təxminən sahəsi 15 min kvadratkilometr olan ərazi dağıdılıb. Bununla belə, sülh sazişini imzalamaq və delimitasiya işlərini başlamaq üçün təklifi Azərbaycanın verdiyini vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, hazırda Qarabağ məsələsi bitdikdən sonra Ermənistan verilən təkliflə razılığa gəlməkdə daha həvəsli olacaq: "Çünki suverenliyimizin bərpası və Qarabağda qeyri-qanuni separatçı rejimin ləğv edilməsi ilə, fikrimcə, Ermənistana daha cəsarətli davranmağa və ya danışıqlara getməyə mane olan əsas amil artıq mövcud deyil".Dövlət başçısı onu da vurğtulayıb ki, iki gün əvvəl aldığımız ən son təklifləri dəyərləndirəcəyik və öz şərhlərimizi verəcəyik və bununla yanaşı, biz müxtəlif rəsmilər arasında və fərqli kanallar vasitəsilə işçi səviyyədə təmasları saxlayırıq: "Biz sentyabrın 11-də onlara sonuncu şərhlərimizi təqdim etmişdik və onlardan cavabı yalnız iki gün əvvəl almışıq. Beləliklə, təqribən iki ay yarımdır ki, onlar bir neçə səhifədən ibarət mətn layihəsini nəzərdən keçiriblər. Bu, nə deməkdir? O deməkdir ki, onlar süni olaraq prosesi ləngitmək istəyirlər. İndi noyabrın sonudur və ilin axırına qədər sülh sazişinin imzalanması ilə bağlı ümidlər o qədər də nikbin deyil". Dövlət başçısı bir daha vurğulayıb ki, sülh üçün alternativ yoxdur və əgər sülh sazişi imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq: "Düşünürəm ki, sülh üçün alternativ yoxdur. Əgər sülh sazişi imzalanmasa, bu, bütöv bölgə üçün çox pis olacaq. Biz istəyirik ki, Cənubi Qafqaz bölgəsində hər hansı risk olmasın. Əlbəttə, biz istəyirik ki, Ermənistan nə bu gün, nə də gələcəkdə ərazi bütövlüyümüzü sual altına qoymasın və Azərbaycana qarşı hər hansı ərazi iddialarından tam əl çəksin".

Beləliklə, əgər Ermənistan həqiqətən sülh istəyirsə, öhdəliklərinə tam şəkildə əməl etməli və ikitərəfli danışıqlar formatında Azərbaycanla razılığa gəlməlidir. Çünki sülhün, regionda dinc birgəyaşayışın bu şərtlərdən kənarda alternativi yoxdur.

***RƏFİQƏ KAMALQIZI***



## Yeni Azərbaycan Partiyasının nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

***Dekabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin əziz xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.***

Azərbaycanın müstəqil dövlət kimi davamlı inkişafı və tarixi uğurlar qazanması Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və əbədiyaşar ideyaları ilə bağlıdır. Xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlər göstərən Ulu Öndər yeni və müasir Azərbaycan reallığını yaratmışdır.

Bu gün Azərbaycan dövləti Ümummilli Liderin siyasi varisi olan





Prezident, Müzəffər Ali Baş Komandan,Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə qüdrətli və qalib ölkə kimi tərəqqi və Zəfər yolunda inamla irəliləyir, parlaq nailiyyətlərə imza ataraq yeni zirvələr fəth edir.

## Tahir Budaqov: YAP-ın prezidentliyə namizədi partiyanın İdarə Heyətinin iclasında irəli sürüləcək

**“Növbədənkənar prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının hazırlanması yekunlaşmaq üzrədir. Yaxın günlərdə ictimaiyyətə ətraflı məlumat veriləcək”. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında deyib.**



Tahir Budaqov bildirib ki, YAP-ın VII Qurultayında qəbul olunmuş yeni Nizamnaməyə əsasən seçkilərdə namizədin irəli sürülməsi partiyanın İdarə Heyətinin səlahiyyətindədir: ”Ona görə də YAP İdarə Heyətinin iclasında bu məsələyə baxılacaq. İclasın vaxtı yaxın günlərdə bəlli olacaq”.

Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış əhali seçici siyahılarına daxil edilib. Həmin ərazilərdə də seçki prosesi baş tutacaq. ”Uzun illər hər kəs deyirdi ki, Qarabağı kim azad etsə, o, bizim əbədi Prezidentimiz olacaq. Düşünürəm ki, cənab İlham Əliyev dövlət başçısı kimi 20 il ərzində həyata keçirdiyi siyasətlə, Azərbaycan xalqına xidmətlə, işğal olunmuş ərazilərimizi azad etməklə bu vəzifəni, bu titulu daşımaq haqqını qazanıb. Hər bir vətənpərvər azərbaycanlı bu fikirdədir. Partiyanın İdarə Heyətinin iclasında hər kəs bu məsələ ilə bağlı fikrini bildirəcək. Yeni Azərbaycan Partiyasının bu barədə fikri qətidir”,-deyə YAP Sədrinin müavini vurğulayıb.

## Qərar açıqlandı: COP29 2024-cü ildə Azərbaycanda keçiriləcək

***BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 gələn il Azərbaycanda keçiriləcək. AZƏRTAC-ın Dubaya ezam olunmuş xüsusi müxbiri xəbər verir ki, bununla bağlı qərar COP28-in dekabrın 11-də keçirilən plenar iclasında verilib.***



Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev COP28-in yüksək səviyyədə təşkilinə görə Konvensiya Katibliyinə və Birləşmiş Ərəb Əmirliklərinə təşəkkürünü bildirib. Nazir qeyd edib: ”Qarşılaşdığımız problemlər kollektiv fəaliyyət, razılaşdırılmış ümumi məqsəd və istəklərə sədaqət tələb edir. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin əhəmiyyətini anlayır. Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi bugünkü uğurumuzda həlledici rol oynayıb”.

Azərbaycanı COP29-un ev sahibi ölkəsi kimi dəstəkləmək qərarına görə Şərqi Avropa Qrupu dövlətlərinə dərin minnətdarlığını ifadə edən M.Babayev zəngin mədəni irsi və dinamik enerjisi ilə ölkəmizin dünya ictimaiyyətinin dövrümüzün aktual problemlərinin həlli istiqamətində bir araya gəlməsi üçün mühüm mərhələ olacağını qeyd edib.

”Biz iqlim dəyişikliyinə qarşı əlaqələndirilmiş cavab tədbirlərinin vacibliyini dərk edir, birgə təşəbbüslər vasitəsilə təsirimizi gücləndirməyi və davamlı gələcəyə doğru irəliləyişi sürətləndirməyi hədəfləyirik”, - deyən nazir COP28-in bütün iştirakçılarına və təşkilatçılara bir daha təşəkkür edib.

Sonra son illər Azərbaycanın mədəniyyətini, tarixini, təbiətini və qazandığı uğurları əks etdirən videoçarx nümayiş olundu. Daha sonra COP28-in prezidenti, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir COP-un növbəti konfransının Azərbaycanda keçiriləcəyini elan etdi. Qeyd edək ki, COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. Hər regional qrup, üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir.

2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb.

Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını ”Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək ”Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.



# Xalqın etimadını qazanan LİDER!

**Dövlət rəhbərinin seçilməsi, bunun üçün seçkilərin keçirilməsi hər bir ölkənin ictimai-siyasi həyatında mühüm hadisə sayılır. Eyni zamanda, növbədənkənar seçkilərin keçirilməsi də dünya təcrübəsində rast gəlinən, qanuni şəkildə qəbul olunandır və xüsusi əhəmiyyətə malik olduğu zaman tətbiqinə üstünlük verilir. Nəzərə almaq lazımdır ki, işğal olunmuş ərazilərimiz işğaldan azad edildikdən və Qarabağ bölgəsi üzərində suverenliyin tam bərpasından sonra ilk dəfə növbədənkənar prezident seçkiləri, məhz Azərbaycan üçün daha böyük əhəmiyyət kəsb edir.**

Sözsüz ki, dövlət başçımızın, cənab Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi müddətdə Azərbaycanın əldə etdiyi nailiyyətlər, uğurlar, irəliləyişlər, hər bir sahədə müşahidə olunan inkişaf, əlalxüsus da əldə edilən qələbələr, məhz Ali Baş komandanımızın rəhbərliyi, siyasi iradəsi, qətiyyəti sayəsində ərazilərimizin işğaldan azad olunması fonunda xalqımızın, vətəndaşlarımızın öz rəhbərinə inamının, etimadının kifayət qədər yüksək olması zərrə qədər də şübhə doğura bilməz. Məhz elə bu inama, bu etimada istinad edərək cəsarətlə deyə bilərik ki, əvvəlcədən 2025-ci ildə keçirilməsi planlaşdırılan Prezident seçkilərində cənab İlham Əliyevin növbəti dəfə qələbə qazanacağına da hər zaman əmin olmuşuq və hal-hazırki vəziyyətdə xüsusi əhəmiyyət daşıdığına görə, 7 fevral 2024-cü ildə tarixində keçirilməsi qərarı verilən növbədənkənar Prezident seçkilərində də ölkə rəhbərimizin eyni şəkildə qələbə qazanacağına əminliyimiz həddindən artıqdır.

Əlbəttə ki, Vətən Müharibəsində qazanılan Zəfər, torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin edilməsi, suverenliyimizin bərpası güclü bir dövlətçilik olmadan heç də mümkün görünə bilməzdi. Çünki qələbənin əldə edilməsində məhz güclü dövlətçilik mütləq şəkildə vacibdir və bu güclü dövlətçiliyə də məhz cənab İlham Əliyevin uzaqgörən siyasəti sayəsində nail olunub. Digər tərəfdən, qələbə olmadan, Zəfər qazanmadan tam, bütöv bir dövlətçilik barədə danışmaq heç də yerində düşmür. Deməli, əldə edilən qələbələr, Zəfər, ərazi bütövlüyümüzün, suverenliyimizin tamamilə bərpa edilməsi ilə məhz dövlətçiliyimizin daha da möhkəmləndirilməsi bir-birini tamamlamaqdadır. Bu isə o deməkdir ki, əldə edilən qələbələrdən, ərazi bütövlüyünün, suverenliyin bərpasından sonra, yəni, yenilənən Azərbaycanda xalqımızla, vətəndaşlarımızla ölkə başçımızın arasında olan etimad mandatının da yenilənməsi zərurəti yaranır. Elə məhz bu zərurətdən dolayı növbədənkənar Prezident seçkilərinin keçirilməsi olduqca vacib və son dərəcə əhəmiyyətli hesab olunur. Bu baxımdan da növbədənkənar Prezident seçkilərinin keçirilməsi barədə qərar tam yerinə düşür, məntiqidir və başadüşüləndir.

Bundan əvvəl, yəni, 2018-ci ildə keçirilən Prezident seçkilərində qazandığı qələbə ölkə rəhbərimzə, cənab İlham Əliyevə milli maraqlarımızın təmin edilməsi, uğurlarımızın, inkişafımızın davamlı olması, qələbələr qazanılması istiqamətində qətiyyətli tədbirlər görmək mandatı verdi. Bununla da Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ölkə rəhbəri olaraq, fəaliyyəti ilə həm möhkəm bir dövlətçiliyə, həm də mükəmməl qələbələrə, Zəfərə imza atdı. Ali Baş Komandanımız resursları elə bir şəkildə səfərbər etdi, elə bir şəkildə birləşdirə bildi ki, xalqımız tərəfindən seçildiyi vaxtdan cəmi iki il sonra Qarabağdakı erməni işğalçı rejimini, qondarma mif yaradılan erməni silahlılarını, bütövlükdə Ermənistan tərəfini diz çökdürdü və bununla da erməni baş nazir Nikol Paşinyan təslimçilik aktına, kapitulyasiya sənədinə imza atmaq məcburiyyətində qaldı. "Dəmir yumruq", xalqımızın həmrəyliyi, birliyi, ordumuzun rəşadəti, Ali Baş Komandanımız cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və rəhbərliyi ilə düşmənin başına endirildi və ərazilərimiz erməni işğalından təmizləndi. Bütün bu qələbələr, məhz xalqımızın öz rəhbəri ilə bir olması, həmrəy olması, inam və etimadı sayəsində ən qıza zaman kəsiyində əldə edildi. İndi həmin birliyin, həmrəyliyin, inamın, etimadın fonunda növbədənkənar Prezident seçkilərində cənab İlham Əliyevin yenə də qələbə qazanacağına hər bir Azərbaycan vətəndaşı hədsiz dərəcədə əmindir.

Ölkə vətəndaşlarının öz rəhbərini, cənab İlham Əliyevi yenidən Prezident seçəcəyinə olan əminliyimiz heç də təsadüfi, yaxud da əsassız deyil. Bu əminlik heçdən də yaranmayıb. Əsrin üçdə birinə yaxım müddət ərzində öz ərazisinin 20 faizindən məhrum olan, mədəniyyətimizin beşiyi sayılan Qarabağ olmadan mövcud olan bir ölkədə onillər böyü yaşayan vətəndaşlarımızın indi bu məhrumiyyətlərsiz yaşaması qürurvericidir, sevindiricidir və xaqımıza məxsus olanların, dəyərlərinin yenidən geri qaytarılması qətiyyən yaddaşlardan silinən deyil. O da yaddaşlardan silinən deyil ki, bütün bunlar məhz Ali Baş Komandanın, cənab İlham Əliyevin rəhbərliyi, siyasi iradəsi, qətiyyəti, xalqla, ordu ilə birliyi sayəsində reallaşıb. "Biz yeni reallıq yaratdıq, bunu nəzərə alın!", deyərək, 26 oktyabr 2020-ci il tarixində xalqa müraciətində bəyan edən cənab Prezident İlham Əliyev bu birliyin təntənəsinin yeni reallıqlar yaratdığını diqqətə çatdırırdı. Ölkə rəhbəri bununla diqqətə çatdırdı ki, istər ölkə daxilində, istərsə də xarici siyasət istiqamətində yeni reallıqlar yaradılıb. Həqiqərən də görürük və indi artıq heç kim üçün də sirr deyil ki, bu reallıqlar elə ölkə hüdudlarından kənarda da nəzərə alınmaqdadır. Bütün dünya artıq Azərbaycanın yaratdığı reallıqları qəbul etməkdədir və bu reallıqların da məhz bir ölkənin başçısının, rəhbərinin, cənab İlham Əliyevin liderlik keyfiyyətləri sayəsində mövcudluğu qəbul olunmaqdadır. Bütün bunlar, əlbəttə ki, ölkə vətəndaşlarının da diqqətindən yayınmır, olduqca yüksək qiymətləndirilir və xalqımızın öz rəhbərinə inamının, etimadının, birliyinin, həmrəyliyinin daha da artmasını şərtləndirir.

Əlbəttə ki, Azərbaycan Ordusunun başladığı işi məhz bu ilin 20 sentyabr tarixində tam olaraq yekunlaşdırması, qanunsuz erməni silahlılarının, eləcə də qondarma rejimin qalıqlarının tamamilə yığışdırılması, bununla da süverenliyimizin tam şəkildə bərpası artıq yeni bir mərhələnin başlanğıcı oldu. Yəni, ərazi bütövlüyünün, suverenliyin tam şəkildə bərpası ilə yeni bir mərhələnin başlanğıcı Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Bu isə, sözsüz ki, yeni dövrdə yeni çağırışlarla ölkəmizi qarşı-qarşıya qoydu. Daha dəqiq desək, yeni reallıqlar artıq yeni çağırışlardan xəbər verir. Bu çağırışlar isə heç də nəzərə alınmayacaq deyil. Çünki ölkəmizin bu boyda böyük, bu qədər çətin sınaqdan, özü də müstəqil şəkildə çıxması heç də bütün dünyanın asanlıqla barışacağı məqam kimi görünmür. Hətta sabit və firavan cəmiyyət quruculuğu istiqamətində ölkəmizin müstəqil siyasət yürütməsinə, bir sözlə, yeni mərhələyə qədəm qoyan Azərbaycana bəzi qüvvələrin əngəllər yaratmaq planlarının olması və bundan sonra olacağı da istisna edilə bilməz. Yeni reallıqlar fonunda, yeni dövrdə məhz yeni-yeni strateji planları həyata keçirmək üçün vətəndaşlarımızın, xalqımızın ölkə rəhbərinə, cənab İlham Əliyevə inamının, etimadının olduğunu, daha da artdığını bir daha təsdiq etmək gərəkir. Ona görə ki, çox mühüm islahatların aparılması, daha irimiqyaslı qlobal layihələrin reallaşdırılması üçün həmin etimadın, inamın, həmrəyliyin və birliyin bir daha təsdiq edilməsinə ehtiyac duyulur. Məhz buna görə də, düz otuz ildən sonra ilk dəfə olaraq, əraziləri tamamilə bərpa olunmuş, suverenliyi tam təmin olunmuş bütöv Azərbaycanda növbədənkənar Prezident seçkilərinin keçirilməsi labüddür və bu seçkilərdə artıq keçmiş məcburi köçkünlərin bir çoxu öz şəhərlərində, öz kəndlərində səs vermək imkanına sahibdirlər. Hətta Azərbaycan vətəndaşlığını qəbul edərək, Qarabağda yaşayan ermənilər belə həmin növbədənkənar Prezident seçkilərində iştirak edəcəklər. İndi artıq bütöv bir Azərbaycanın vətəndaşları öz rəhbərini, öz Prezidentini seçəcək və əminik ki, ölkəmizin vətəndaşları öz vətəndaşlıq borcunu yerinə yetirməli olduğunu dərindən dərk edirlər. Əminik ki, bundan sonra daha böyük qələbələrə, daha böyük uğurlara imza atmaq, daha nəhəng strategiyanın reallaşdırılması, daha böyük qlobal layihələrin reallaşdırılması üçün öz rəhbərinə, məhz cənab İlham Əliyevə səs verməyin vacibliyini hər kəs dərindən dərk edir. Ona da əminik ki, qarşıdan gələn növbədənkənar Prezident seçkilərinin məhz bütöv Azərbaycanın şanlı tarixində daha bir əlamətdar hadisə olacaq və xalqımız eyni şəkildə həmrəylik, birlik nümayiş etdirərək, öz liderinin ətrafında davamlı olan birlik nümayiş etdirərək, öz etimadını bir daha göstərəcəyinə zərrə qədər də şübhə yoxdur. Çünki ölkə başçımız, Ali Baş Komandan, cənab İlham Əliyev xalqımızın, Azərbaycan xalqının hər zaman etimadını qazanan liderdir.

***İnam Hacıyev***

# Qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlıq

Ümumbəşəri dəyərlərə, eləcə də sülh, demokratiya, sabitlik və regional əməkdaşlıq prinsip və ideyalarına əsaslanaraq, Azərbaycan dünya dövlətləri, təşkilatları ilə sıx əlaqələrini davam etdirir. Əməkdaşlığı və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. İqtisadi, siyasi, sosial və s. qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi bu əlaqələrin davamlılığının təzahürüdür. Prezident İlham Əliyev Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb. Prezident İlham Əliyev ölkələrimizin həyata keçirdiyi birgə layihələrin önəminə toxunaraq, bunu geniş regionda - Avrasiya məkanında önəmli amil kimi dəyərləndirərək, birgə təşəbbüslərimizin bundan sonra da uğurla həyata keçiriləcəyinə əminliyini ifadə edib. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın da münasibətlərimizin inkişafına mühüm töhfə verdiyini vurğulayaq, bunun əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün zəruri hüquqi baza yaratdığını bildirib.Prezident İlham Əliyev Şalva Papuaşvilinin Azərbaycana səfərinin əlaqələrimizin uğurlu inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib. Görüşdə energetika, nəqliyyat, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



### İRİMİQYASLI ENERJİ VƏ NƏQLİYYAT LAYİHƏLƏRİNİN GERÇƏKLƏŞMƏSİNƏ ƏLVERİŞLİ İMKAN

Bildiyimiz kimi, artıq Azərbaycan və Gürcüstan arasında qurulan əlaqələr tarixən dostluq, mehriban qonşuluq əsasında qurulub. Azərbaycan müstəqillik qazandıqdan sonra qarşılıqlı inam və etimada əsaslanan əlaqələr yüksələn xətt üzrə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatıb.Azərbaycan müstəqillik əldə etdikdən sonra 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir. Əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamış dövlətlərin birgə həyata keçirdikləri layihələr təkcə iki dövlət üçün deyil, dünya üçün əhəmiyyət kəsb edir. Cənab Prezidentin çıxışlarının birində bildirdiyi kimi, ”Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi, daim genişlənən siyasi dialoqumuz qarşılıqlı faydalı əməkdaşlığımızın bütün sahələrdə hərtərəfli inkişafına güclü təkan vermiş, irimiqyaslı enerji və nəqliyyat layihələrinin müvəffəqiyyətlə gerçəkləşməsinə əlverişli imkan yaratmışdır. Birgə həyata keçirdiyimiz önəmli layihələr bu gün dövlətlərimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət etməklə yanaşı, bölgəmizin rifahına, sabitliyinə və təhlükəsizliyinə töhfə verir və ümumiyyətlə bütün Avropa qitəsi üçün mühüm əhəmiyyət daşıyır”.

Əlbəttə ki, Azərbaycanın qonşu ölkələrlə bağlı siyasətində Gürcüstanla münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan öz enerji resurslarının Avropa bazarlarına çatdırılmasında, eyni zamanda, Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstan mühüm tranzit rol oynayır.

Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir.

### CƏNUBİ QAFQAZDA ƏMƏKDAŞLIĞIN VƏ TƏHLÜKƏSİZLİYİN QARANTI

Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar.

Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. Qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-Gürcüstan münasibətləri dinamik inkişaf edərək yeni məzmun kəsb etməkdədir. Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin daha da genişləndirilməsi, xalqlarımızın rifahı qurulan əməkdaşlıq möhkəm təməl üzərindədir.Siyasi, iqtisadi, mədəni, sosial islahatlar nəticəsində Azərbaycan dünyanın bu günkü qabaqcıl dövlətlərindən birinə, eyni zamanda regional lider və beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Azərbaycan Prezidenti dünyaya yeni mesajlar verdi”

*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

“Beynəlxalq arenada müstəqil siyasət yürütməyi davam edəcəyimiz haqda, Qarabağın məhz Azərbaycanın hissəsi olması və bunun, hamı, o cümlədən Ermənistanın özü tərəfindən etiraf edildiyi, eləcə də Azərbaycanın çoxmillətli ölkə olması, bu ölkədə heç bir etnik qrupun dini, etnik zəmnində heç vaxt, heç bir probleminin və narahatçılığının olmaması barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ”Euronews” televiziyasına verdiyi müsahibəsində səsləndirdiyi fikirlər günün reallıqlarını əks etdirməklə bərabər, gələcək vəzifələrə yeni bir baxış, sülhün, əminamanlığın bərpası üçün dünyaya verilən mesajdır.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.Komitə sədri vurğulayıb ki, ölkəmizin başçısı fəaliyyətinin bütün dövrlərində bəşəri dəyərlərə - demokratiyaya, insan azadlığına, haqqa, ədalətə, ölkələrin suverenliyinə və müstəqilliyinə sadiqliyini nümayiş etdirib, Azərbaycan xalqının xoşbəxtliyi, torpaqlarımızın düşməndən azad edilməsi uğrunda mübarizə aparıbdır.



”Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, beynəlxalq əlaqələri daha da möhkəmləndirmək, ölkədə ictimai-siyasi sabitlik yaratmaq, vətəndaş həmrəyliyini təmin etmək başlıca vəzifə kimi qarşıya qoyulub və dövlət rəhbəri verdiyi vədi, əməli fəaliyyəti ilə doğruldubdur. 20 ildə Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə, dövlət büdcəsinin gəlirləri 20 dəfədən, valyuta ehtiyatları isə 37 dəfədən çox artıbdır. Bu illər ərzində ölkəyə 300 milyard dollardan artıq sərmayə cəlb olunubdur, işsizlik 50 faizdən 5.5 faizə enibdir. 3250-dən çox məktəb, 750 tibb müəssisəsi, çoxsaylı idman-olimpiya mərkəzləri, mədəniyyət ocaqları tikilib, təmir edilib, istifadəyə verilibdi. 21 min kilometrdən artıq yol çəkilib, 14 min şəhid ailəsi, müharibədə sağlamlığını itirən şəxslər mənzillərlə təmin olunubdur.

”Euronews” televiziyasına müsahibəsində cənab İlham Əliyev iqtisadi məsələlərə önəm verməklə bərabər, Azərbaycanın beynəlxalq aləmə verdiyi töhfələrdən, Avropanın enerji təhlükəsizliyinə yardımından, alternativ enerji mənbələrinin yaradılmasından, neft hasilatının və ixracının artırılmasından, Cənub Qaz Dəhlizinin başa çatdırılması istiqamətində görülən işlərdən, Azərbaycanın müstəqil daxili və xarici siyasətə malik olmasından, etibarlı tərəfdaş kimi dünya ölkələri tərəfindən qəbul edilməsindən söz açıb və dövlətimizin bundan sonra da müstəqil siyasət yürüdəcəyinə əminliyini bildiribdir. Azərbaycan Prezidenti müxbirin, işğaldan azad olunmuş torpaqlar və Ermənistanla münasibətlərə dair suallarına bu günün reallıqları baxımından cavab verərək bildirib ki, ərazilərimiz düşməndən azad olunub və regionlarda tikinti-bərpa işləri uğurla davam etdirilir, 2026-cı ilin sonuna kimi 140 min insan öz torpaqlarında yerləşdiriləcəkdir. Qeyd olunub ki, biz qalib olsaq da, sülhün tərəfdarıyıq və Ermənistan tərəfə bunu dəfələrlə bildirmişik, ancaq onlardan konkret cavab almamışıq. Dövlətimizin rəhbəri ermənilərin Qarabağdan getməsinə münasibət bildirərək, diqqətə çatdırıb ki, Qarabağda yaşayan erməni ailələrinin hüquqlarını tanıyırıq və onlar geri qayıda bilərlər, ancaq Ermənistandan qovulmuş 300 min soydaşlarımızın da öz doğma yurd-yuvalarına qayıtmaq haqqı vardır və qayıdışlar qarşılıqlı olmalıdır.

Prezidentimizin söylədiyi fikirlər əlbəttə ki, beynəlxalq hüququn normalarına əsaslanır və təkzib oluna bilməz. Bu müsahibə Azərbaycan dövlətinin sülh danışıqlarına, beynəlxalq prinsiplərə, humanist dəyərlərə, münasibətlərin yaxşılaşdırılmasına, dövlətimizin milli maraqlarının qorunmasına sadiqliyini bir daha göstərir və xalqımızı qürurlandırır”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Dəm qazından bu üsulla qorunmağın yolları AÇIQLANDI

*AYDINLIQ GƏTİRİLDİ*



“Dəm qazı dadsız, rəngsiz və iysiz olduğundan onu hiss etmək olmur. Ancaq dəm qazından zəhərlənmənin əlamətləri vardır. Dəm qazından zəhərlənmənin əlamətləri ürəkbulanma, qusma, baş ağrısı, baş gicəllənməsi daha ağır formada olduqda qıcolma və hətta adam komaya düşə bilər”. Bu sözləri SİA-ya təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev deyib. Onun sözlərinə görə, dəm qazından zəhərlənən adama ilk tibbi yardım onu çölə təmiz havaya çıxarmaq, əynində sıxıcı paltar varsa, yavasını açmaq, alnına soyuq kompres qoymaq, arxası üstə uzatmaq, qollarını ovuşdurmaq əgər vəziyyəti ağırdırsa, şüuru özündə deyilsə, süni nəfəs vermək və naşatır spirti qoxlatmaq lazımdır: ”İlk tibbi yardım göstərməklə bərabər təcili tibbi yardımı çağırmaq lazımdır. Dəm qazı yanma prosesi düzgün getmədikdə yaranır. Odunun yanmasından da dəm qazı yarana bilər.

Ekspert qeyd edib ki, yanma düzgün getdikdə ayrılan dəm qazı karbon qazına çevrilərək boru vasitəsilə xaric olur: ”Yanmanın düzgün getməməsinə səbəb kustar üsulla düzəldilmiş qaz sobaları, onların borularında yaranan ara məsafəsi, qırıq və çatlardır. Bunun üçün qaz sobalarını alarkən sertifikatlaşdırılmış sobaları almaq lazımdır. Evdə olan sobaların təmirə ehtiyac olub-olmadığını yoxlamaq, ildə azı iki dəfə boruları təmizləmək, ümumiyyətlə, evin havasını gündə üç dəfə dəyişmək, hamam otaqlarında nəfəsliyin olmasına diqqət etmək lazımdır”.

# Xalq Ulu Öndəri necə xatırlayır?



***Azərbaycan xalqının ümummilli lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə parlaq səhifə açan bənzərsiz şəxsiyyətdir. Tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. O, ömrünün 81-ci ilində - müdriklik zirvəsində bizi tərk etdi. Heydər Əliyev zirvəyə xalq sevgisi və inamı ilə yüksəlib. SİA Ulu Öndərin anım günündə onu necə xatırladıqları ilə əlaqədar Bakı sakinləri arasında sorğu keçirib.***

**Şəhər sakini prof. Elmlər doktoru Telman Hacıyev:** "Heydər Əliyev dünyanı quran adamlardandır. Yalnız sülh məsələsi deyil, hər ölkənin, millətin, xalqın özünə məxsus xasiyyəti var. Heydər Əliyev əsl kişi idi, insanları bir-birinə qovuşdura bilən insan idi. Mən tarixi şəxsiyyət və xalqını çox sevən insanam. Ulu öndər Azərbaycanı



çox gözəl qurub, İlham Əliyev də güclü idarə edir. Bunlar tərif deyil, reallıqdır. Həm bizim yaşıdlarımız, həm də gənclərimiz xoşbəxtdir. Çünki kiçik Azərbaycanda dahi şəxsiyyət dünyaya gəlib. Ulu öndər təkcə ailə üçün deyil, dünya üçün yaranıb. Çox sevindim ki, mənə yaxınlaşdınız, ürəyimdəki sözlərin bir hissəsini paylaşa bildim. İlham Əliyevin də idarəçiliyi mənim ürəyimcədir. O, çox kamil, dünyəvi, insanpərvərdir. Düşmənlə də elə danışır ki, onu zəlil edir. Çox böyük insandır. Heydər Əliyev dünyasını dəyişəndə mənə çox pis təsir etmişdi. İndi bu sualla mənim ruhum dəyişdi, kövrəldim. Düzdür, onun ruhu və yolu qalıb. İlham Əliyevin də öz ağlını yüksək qiymətləndirirəm, bir insan, vətəndaş, filosof alim kimi qiymətləndirirəm. Mən fəlsəfədən mühazirələr oxuyuram. Söhbət ağıldan yox, insan ruhundan gedir. İlham Əliyev öz ruhunu xalqına işlədir. Əhsən, çox güclü ailədir. Arzum budur ki, İlham Əliyevin ömrü uzun olsun, vətənimiz getdikcə inkişaf etsin. Allah Mehriban xanımı da, uşaqlarını da xoşbəxt etsin. İnsan yaşayaraq hər şeyi qiymətləndirir. Mənim vətənim üçün belə insanlar lazımdır".

**Şəhər sakini Hüseyn Yunusov:** "Mən Rusiyada dünyaya gəl-



mişəm. Orada Azərbaycan məktəbi var idi, anam bizi oraya göndərirdi ki, biz Azərbaycan dilini öyrənək. Əvvəllər də Heydər Əliyev haqqında çox eşitmişdim, valideynlərim onun liderliyi haqqında, Azərbaycanı xilas etməsindən danışmışdılar. Kiçik olanda mən ona baba deyirdim. Çox gözəl xatırlayıram. Gündəliyin üzərində onun şəkli var idi. Nənəm deyərdi ki, gündəliyini gətir, babanın şəklini öpüm. Həmişə deyərdi ki, o sənin babandır. Mən fikirləşirəm ki, Heydər Əliyevin müasir Azərbaycan üçün olan rolu, həqiqətən, çox mühüm və böyük roldur. Çünki bizi ən çətin vəziyyətdən çıxardı. 1-ci Qarabağ müharibəsində millət ayağa qalxmışdı. İstər siyasi, istər ekonomik cəhətdən olsun onun rolu çox böyük olub. Mən şadam ki, azərbaycanlıyam və bu ölkənin vətəndaşıyam. Ölkəmin tarixini gördüm, Azərbaycanda 10 ildir yaşayıram. Heydər Əliyevi isə çox yaxşı xatırlayıram, həmişə qəlbimizdədir. Təvəllüdüm 2003 olsa da, valideynlərimdən eşitmişəm ki, xalq, ölkə üçün matəm idi. Dünyada yaşayan bütün azərbaycanlılar üçün belə lideri itirmək çox böyük itki idi. Allah rəhmət etsin. Yenə də təkrar edəcəm, hər zaman demişəm ki, onun rolu çox böyük və massiv olub. Bunu unutmamaq və xatırlamaq lazımdır. Digər dünya liderləri Heydər Əliyev kimi ola blməz. Ondan bir də gəlməyəcək, yeganə idi".

**Şəhər sakini Hüseynov Hüseynağa:** "Heydər Əliyev Azərbay-



canın prezidenti olub. Müstəqil Azərbaycan Respublikasının qurulmasında və möhkəmlənməsində böyük xidmətləri olub. Onunla bağlı xatirəm belədir ki, O, 1969-cu ildə hakimiyyətə gələndə mən də universitetə qəbul oldum. Bütün mafiaların əl-qolunu bağladı. Allah rəhmət etsin".

**Şəhər sakini Kamil Novruzov:** "Heydər Əliyev Sovet hökuməti zamanında Azərbaycanın birinci katibi olub. SSRİ süqut etdikdən sonra



müasir dövrdə də ölkəmizə başçılıq edib. O, dünyasını dəyişəndə liderimizi itirdiyimiz üçün çox kədərləndik. Çox təəssüfləndik və sıxıldıq. Allah rəhmət etsin. Mən də bir neçə dəfə Fəxri Xiyabana onu ziyarət üçün getmişəm. Ulu öndər Azərbaycanı vətəndaş müharibəsindən xilas etdi, atəşkəsə imza atdı. Neft sektoru, idman sahələri üzrə inkişafa nail olub. Sənayeni inkişaf etdirib".

**Şəhər sakini Heybətulla Məmmədov:** "Heydər Əliyevi çox yaxşı xatırlayıram, gözəl insan idi. Allah rəhmət etsin. O olmasaydı, Azərbaycan xalqı batardı. Cavan idik, görürdük ki, yaxşı prezidentdir, xalqın qayğısına qalır. Hamının öz sənəti var, Heydər Əliyevdə də prezident sənətkarlığı var idi. Azərbay-



canda hər sahəni inkişaf etdirdi, kondisioner zavodu tikdirdi. Ermənilər bizi irəliləməyə qoymurdu, amma onun hökmü ilə hər şeyə nail olurduq. O da, İlham Əliyev də Azərbaycanı bütün dünyaya tanıtdılar. Allah xalqımıza da xoşbəxt günlər nəsib etsin".

**Şəhər sakini Əli Hüseynov:** "Çox mülayim, təvazökar, qayğıkeş, insanlara həmişə yaxşılıq edən, xalqı düşünən biri idi. Həmişə xalqla yaşayırdı. Naxçıvandan Bakıya gəlməsini çox yaxşı xatırlayıram. Yüngül sənaye, neft sahəsi inkişaf etdi, kondisioner zavodunu



açdırdı, ordunu yenilədi. Xəstə olanda Amerikada idi, sonra Bakıya gətirdilər. Yadımdadır, dünyasını dəyişəndə onu necə Fəxri xiyabana aparırdılar. Mən də getmişəm Fəxri xiyabana. Xalq orada idi".

**Şəhər sakini Kamalə Abdullayeva:** "Heydər Əliyev hakimiyyətə geri dönəndə biz uşaq idik. Nənələrimiz deyirdi ki, Heydər Əliyev gəlirsə, bundan sonra hər şey yaxşı olacaq. Elə də oldu. Biz ona başqa cür yanaşırdıq. Azərbaycanın



harasına getsəniz orada onun şəkli var, hər şey onun adı ilə bağlıdır. O, dünyasını dəyişəndə əziz adamımızı itirdik, Azərbaycan yas içərisində idi. Matəm saxladıq. Qəbrini ziyarətə mən də getmişəm. Bunu özümüzə borc bilirik".

**Şəhər sakini Şəlalə Quliyeva:** "O bizim Ulu öndərimizdir. Göydə Allah, yerdə onu bilmişik. Onun zamanında yaxşı yaşamışıq. İndi də pis yaşamırıq, şükür. O, dünyasını



dəyişəndə inanmadıq, çünki onu ölməz bilirdik. Çox heyif ki, itirdik. Azərbaycandakı çox sahənin inkişafı onun adı ilə bağlıdır".

***Söylü Ağazadə***

# Heydər Əliyev: Azərbaycanın rəmzi

**Sona çatmaqda olan il ölkəmizdə "Heydər Əliyev İli" və həm də Ulu Öndərimizin 100 illik yubileyi kimi tarixə yazıldı. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması və bu il Ulu Öndərin 100 illik yubileyinin Azərbaycanda dövlət səviyyəsində təntənəli şəkildə qeyd edilməsi dahi şəxsiyyətə böyük ehtiramın, yüksək qiymətin əyani göstəricisidir.**



2023-cü ilin "Heydər Əliyev İli" elan olunması barədə imzalanan Sərəncamda deyilir: Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Bəli, Heydər Əliyev ona görə Azərbaycanın rəmzinə çevrilmişdir ki, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan





Heydər Əliyevin həyat amalının təntənəsidir.

## Qeyri-adi idarəçilik bacarığı və polad iradə

Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Ümummilli Lider özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı o illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.

Hələ 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərkən ölkənin ictimai-siyasi həyatında anarxiya və hakimiyyətdaxili intriqalar baş alıb gedirdi. Azərbaycan sosial-iqtisadi cəhətdən durğunluğun və dərin böhranın yaşandığı geridə qalmış ölkə idi.

Heydər Əliyev dövlət təhlükəsizliyi sistemində işlədiyi ilk gündən əldə etdiyi imkandan istifadə edib böyük vətənpərvərlik və uzaqgörənlik ruhunda öz doğma xalqına xidmət etmişdir. DTK-nın rəhbər strukturlarındakı fəaliyyəti dövründə bu orqanın azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərən Ümummilli Liderimiz respublikaya rəhbərliyə başlayan kimi qısa müddətdə idarəçilik sistemini xeyli möhkəmlətmiş, sosial-iqtisadi tədbirlər həyata keçirmiş, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başlamışdır. Aparılan ardıcıl mübarizə nəticəsində qısa müddətdə Azərbaycanda əlverişli sosial-iqtisadi və mənəvi-siyasi şərait yaradılmışdır.

1970-1980-ci illərdə neft-qaz hasilatı sənayesinə və neftayırma zavodlarının yenidən qurulmasına 4 milyard manatdan çox vəsait qoyulmuşdur. Nəticədə, 1980-ci illərin sonunda Azərbaycan keçmiş SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə iki hissəsini verir, neft maşınqayırma sahəsində ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu. 1969-1982-ci illərdə 213 iri sənaye müəssisəsi tikilmiş, sənaye məhsulu istehsalı 2,7 dəfə artaraq əvvəlki 50 ildə olduğu qədər - 101,5 milyard manatlıq məhsul istehsal edilmiş, Azərbaycan sənaye məhsulunun istehsal artımına görə SSRİ-də birinci yerə çıxmışdı. Bakı SSRİ-nin əsas sənaye mərkəzlərindən və beş böyük şəhərindən birinə çevrilmişdi. Azərbaycanın 120-dək müəssisəsində istehsal olunan 350 növ məhsul dünyanın 80 ölkəsinə satılırdı. İxracla idxal arasında 1,5-2 milyard manatlıq müsbət saldo yaranmışdı.

Meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsaitin məbləği (2 milyard manat) əvvəlki 50 il ərzində bu sahəyə qoyulan vəsaitdən 2,5 dəfə çox olmuşdu. Kənd təsərrüfatının məcmu məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmiş, məhsul artımı 11,1 milyard manata çatmışdı. Bu dövrdə 7,7 min kilometr şose, 260 kilometr dəmir yolları çəkilmişdi. 1985-ci ildə Bakı limanından dünyanın 120 limanına gəmilər səfər edir, paytaxtdan respublikanın 12, SSRİ-nin 80 şəhərinə təyyarələr uçurdu. Bakı metropoliteninin 8 yeni stansiyası istismara verilmişdi.

1969-1982-ci illərdə 18,5 milyon kvadratmetr mənzil sahəsi (376,1 min yeni mənzil) istifadəyə verilmiş, 2,2 milyondan çox adam, yəni respublikanın hər üç sakinindən biri yeni evdə məskunlaşmışdı. 1970-1982-ci illərdə iqtisadiyyatın inkişafına 23,9 milyard manat vəsait qoyulmuşdu ki, bu da əvvəlki 50 ildəkindən 1,4 dəfə çox idi. Bu zaman milli gəlirin yalnız artım hissəsi 5 milyard 370 milyon manat təşkil etmiş, onun adambaşına düşən hissəsi 2 dəfə artmış, 633 min yeni iş yeri yaradılmışdı.

Məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə çatmış, 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 6 yeni ali məktəb yaradılmışdı. 1970-80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ali məktəbində 15 mindən artıq azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanmışdı. 1971-ci il iyul ayının 28-də Cəmşid Naxçıvanski adına hərbi məktəb açılmış, 1970-80-ci illərdə SSRİ-nin ali hərbi məktəblərində iki mindən çox azərbaycanlı zabit hazırlanmışdı. Qısa müddətdə SSRİ müdafiə sənayesinin Azərbaycanda on bir böyük zavodu tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda 1155 kitabxana, 1316 klub, 44 muzey, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi. 1980-ci ilin sonunda respublikada artıq ümumi kitab fondu 31,7 milyon nüsxə olan 3858 kütləvi kitabxana, 3212 klub və mədəniyyət evi, 2300 kino qurğusu var idi. 21 min yerlik xəstəxana və poliklinikalar istifadəyə verilmişdi.

1978-ci il Konstitusiyasında Azərbaycan dilinin ali səviyyədə rəsmi dil statusu alması, oncildlik Azərbaycan Sovet Ensiklopediyasının, üççildlik "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi, "Türkologiya" jurnalının nəşrə başlaması, Azərbaycan ziyalılarının imperiyanın təqiblərindən qorunması, görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət mükafatlarının, fəxri adların verilməsi, onların yubileylərinin keçirilməsi, abidələrinin qoyulması, milli ruhlu tarixi filmlərin çəkilişi, mədəniyyət kollektivlərinin və rəssamların qastrol və sərgilərinin təşkili və sair bu kimi faktlar 1970-80-ci illərdə milli-mənəvi həyatın və milli özünüdərk prosesinin sürətli dirçəlişini səciyyələndirirdi.

Beləliklə, Ümummilli Liderimizin sözləri ilə desək: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

## Azərbaycanda Yeni Azərbaycan

Bütün bu göstəricilər Ulu Öndərin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə də daha fərqli bir şəkildə əldə olunmuşdur. Belə ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan yenidən qurulmuş, Azərbaycanda Yeni Azərbaycan yaradılmışdır.

Məlumdur ki, 1991-ci ildə əldə etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq. Zaman sübut etdi ki, Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.



Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildən hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Heydər Əliyev əsl azərbaycanlı, xalqını canından artıq sevən, vətənpərvər, həyatının sonunadək bu xalqın, bu millətin yolunda cəfa çəkən böyük şəxsiyyətdir. Elə buna görə də xalq Onu özünə Ümummilli Lider seçdi. Taleyini Ona tapşırdı. Müstəqilliyini Ona etibar etdi. Beləliklə də, müstəqilliyimiz təhlükədən, itirilməkdən xilas oldu. Torpaqlarımızın daha da geniş miqyasda itirilməsinin qarşısı alındı. Ölkəmiz dünyada tanındı, dünya dövlətləri ilə iqtisadi əlaqələr quruldu. 70 illik imperiya məngənəsindən qurtulan, bütün sahələrdə tənəzzülə uğrayan Azərbaycanda yeni bir Azərbaycan quruldu. Azərbaycan, bütövlükdə, Ulu Öndərimizin əsərinə çevrildi.

## Ötən 20 il: Ümummilli Liderin müəyyən etdiyi strategiya

Ulu Öndərin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və müasir dövrə uyğunlaşdıran Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı Lider olduğu bir daha təsdiqini tapır. Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri ölkəmizin başçısı ilə hesablaşır, ona hörmət və ehtiramla yanaşır.

2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr 2003-cü il tarixli müraciət də təkcə Ulu Öndərin deyil, bütövlükdə, Azərbaycan xalqının cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ulu Öndər bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Zaman və tarix sübut edib ki, Ulu Öndərimiz siyasətdə heç zaman yanılmayıb. Ötən 20 ildə bunun bir daha şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük. Ötən 20 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük.

Bəli, ordu quruculuğunu xüsusilə vurğulamalıyıq. Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısı, yurd həsrəti onları tərk etmirdi. Onlar öz torpaqlarını istəyirdilər. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bütün bunlar isə dövlətimizin başçısının daim diqqətində olan məsələlər idi.

## Ulu Öndərin arzuları reallaşdı

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycan etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizdir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi Liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan vətəndaşının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu. 2023-cü ilin 20 sentyabrında həyata keçirilən antiterror tədbirləri isə ərazi bütövlüyümüzün tam bərpası ilə nəticələndi.

Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə göstərən olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 20 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir. Qürur duyuruq ki, ötən 100 ilin fövqündə Azərbaycan bu qədər nailiyyət əldə edib.

**Mətanət Məmmədova**

## ƏRDOĞAN: "Türkiyədə Qəzzadan olan tələbələrin təhsil haqlarını dövlət qarşılayacaq"

Ailəsi və ya özü Fələstinin Qəzzada məskunlaşdığı dissertasiya işi üzrə magistr və doktorantların təhsil haqları dövlət tərəfindən qarşılanacaq. SİA xarici mətbuata istinadən xəbər verir ki, rəsmi qəzetdə dərc olunan Türkiyə Prezidenti Rəcəb Taayib Ərdoğanın Fərmanı ilə 2023-2024-cü tədris ilində ali təhsil müəssisələrində Prezident Sərəncamına müvəqqəti maddə əlavə edilib. Müvafiq olaraq, 2023-2024-cü tədris ilinin yaz semestrində Fələstinin Qəzza şəhərində yaşayan və hər hansı dövlət ali təhsil müəssisəsində formal təhsil proqramlarında iştirak edən dissertasiya işi üzrə magistr və doktorantların təhsil haqları dövlət tərəfindən qarşılanacaq.



## Prezidentin xüsusi nümayəndəsi: "Ağdam şəhərində 5 məhəllə salınacaq"

Ağdam şəhərində 5 məhəllənin salınması nəzərdə tutulub. SİA xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib. Onun sözlərinə görə, Ağdamın əsas mədəni-tarixi mərkəzi hissəsində geniş layihələndirmə işləri yekunlaşmaq üzrədir:



"Artıq tikinti proseslərinə başlanılıb. Açıq səma altında İşğal və Zəfər muzeyləri, Muğam Mərkəzi, mehmanxanalar, daxili yol-küçə şəbəkəsi, məktəb və xəstəxana və digər infrastruktur 2026-ci ilin sonuna qədər tikilib təhvil veriləcək".

## "Dünyada ekoloji təmiz qida məhsulu yoxdur"

*QURUM RƏSMİSİ AÇIQLADI*

"Beynəlxalq təşkilatların verdiyi məlumatlara görə, dünyada ekoloji təmiz qida məhsulu yoxdur". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, bu cür məhsullar öz etiketləri ilə belə ətraf aləmi çirkləndirirlər: "Bir çox qida məsullarının etiketində ekoloji nişanlar görürük. Lakin ümumilikdə, xüsusilə də Azərbaycanda ekoloji cəhətdən məhsulların təmizliyi barəsində heç bir monitorinq aparılmır.



Qida məhsullarının qalıqlarının ətraf mühitə nə dərəcədə təsiri və çirklənməyə səbəb olması məsələsi heç bir formada tədqiq olunmur. Təəssüf ki, bu istiqamətdə heç bir iş görülmür. Bəzi məhsulların üzərinə "ekoloji təmiz" yazılır, lakin bu istehlakçıları aldatmaqdır".

**Səbinə Hüseynli**

ŞƏRH-ANALİTİK

# Ermənilərin sevimli janrı kofe fallarıdır

**Politoloqlar nə düşünürlər?**



**Fakt budur ki, Ermənistanın siyasi dairələrində revanşistlərin və ağılsız politoloqların olduğu kimi, hadisələrdən düzgün nəticə çıxarmağı bacaran, siyasi baxışları reallığa uyğun yönələn siyasi şərhçiləri də var. Xüsusilə, sülh müqaviləsinin imzalanması mümkünlüyü dövründə hər iki tərəfin mövqeləri də maraq doğurmaqdadır. "Sülh müqaviləsinin bağlanması qarşılıqlı anlaşmadan keçir və bunun üçün Ermənistan Azərbaycanın tələb etdiyi əraziləri qaytarmalıdır". Bu sözləri erməni hərbi ekspert Hayk Naapetyan ölkəsinin mətbuatına verdiyi müsahibəsində bildirib.**

Onun sözlərinə görə, baş nazir Nikol Paşinyan hakimiyyəti saxlamaq üçün Qərbdən təminatlar alır və buna görə də o özünü konstitusiyadan kənar hərəkət etmək hüququna malik sayır: "Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın ABŞ və Böyük Britaniyanın güc strukturlarının nümayəndələri ilə görüşləri bu təminatların sübutudur. Ərazilərin təslim edilməsi ciddi problemlərə çevrilə bilər. Əgər ərazilərin təslim edilməsi, hətta Paşinyanın gücünü sarsıda bilərsə, bu ərazilər müharibə ilə təslim olacaq".

### "Azərbaycan Ordusu müharibəyə hazırdır, biz isə hələ də yerimizdə sayırıq"

Naapetyanın sözlərinə görə, hakimiyyət kütləvi etirazlar və hakimiyyət dəyişikliyi təhlükəsi hiss etməsə, əraziləri döyüşsüz təhvil verilləcək. Belə ki, Ermənistan və Azərbaycanın təhlükəsizlik sahəsindəki hərəkətləri güc ssenarisinin reallaşacağı təqdirdə fəaliyyət planının hazırlanmasından xəbər verir. O, qeyd edib ki, 44 günlük müharibədən sonra Azərbaycan silah və hərbi texnika almaqda davam edir, Türkiyə ilə 30-dan çox hərbi təlim keçirib, mütəxəssislər hazırlayır: "Bunun fonunda Ermənistanda heç bir hərbi təlim keçirilmir, yəni ölkə mümkün hərbi əməliyyatlara hazır deyil. Belə şəraitdə əraziləri müharibə yolu ilə təslim etmək daha asandır, çünki Azərbaycan Ordusu müharibəyə hazırdır, biz isə hələ də yerimizdə sayırıq".

Hayk Naapetyan məhz bu reallığı əsas gətirməklə müharibənin olmayacağını hesab edir, eləcə də onu bildirir ki, anti-Paşinyan siyasi dairələrinin cəhdlərinə baxmayaraq, Ermənistanın içində də hər hansı çevriliş, yaxud digər ssenarilərin həyata keçməsi mümkünlüyü görünmür. "Çünki Qərb Nikolu hakimiyyətdə saxlamaq üçün artıq hərəkətə keçib, müəyyən məbləğlərdə məbləğlər də xərcləyib", - deyə erməni politoloqu və hərbi eksperti bildirib.

### Artur Xaçikyan: "Azərbaycan əvvəl-axır dəhlizə sahib olacaq"

Digər erməni politoloqu Artur Xaçikyan isə bütövlükdə regional vəziyyətlə bağlı fikirlərini açıqlayaraq deyib ki, Cənubi Qafqazda yaranan geosiyasi vəziyyət beynəlxalq güclərin regiona marağını daha da artırıb. Üstəlik, regional dəhlizlərin işə düşməsini tələb edən ölkələrin strateji maraqlarından irəli gələn siyasi vəziyyət gündən-günə dəyişir. Xüsusilə, Zəngəzur dəhlizinin açılması təkcə region ölkələri üçün deyil, Ermənistan üçün də iqtisadi səmərə verəcək və ölkənin ictimai-siyasi həyatında önəmli rol oynayacaq. Artur Xaçikyan bildirib ki, Azərbaycan əvvəl-axır dəhlizə sahib olacaq və bütün proseslər də ona doğru inkişaf edir: "İlham Əliyev təkid edir ki, Azərbaycan ərazilərini birləşdirəcək dəhlizə ekstraterritorial status verilməlidir. Ermənistanın bu prosesi dayandırmağa, sadəcə, haqqı yoxdur. Dünyada güc qanununun olduğunu millətimizə daha neçə il izah etmək mümkün olacağını deyə bilmərəm. Lakin Əliyev çox israrla öz məqsədinə doğru gedir".

### "İlham Əliyev bütün məsələləri həll etməyə nail olur və Azərbaycanda yaxşı bilirlər ki, Qərb də, Avropa da, ABŞ da, təəssüf ki, Rusiya da öz maraqlarına boyun əyəcək"

Erməni analitiki vurğulayır ki, o, Ermənistanın hakimiyyətindən deyil, Azərbaycan Prezidentinin siyasətini şərh etməkdən məmnun olar: "O, rasional siyasətçi kimi davranır və hərəkətləri tamamilə başadüşüləndir. Bizi Azərbaycanı işğal edən düşmən kimi görür. İlham Əliyev bütün məsələləri həll etməyə nail olur və Azərbaycanda yaxşı bilirlər ki, Qərb də, Avropa da, ABŞ da, təəssüf ki, Rusiya da öz maraqlarına boyun əyəcək. Ermənilər isə, sadəcə, təslim olurlar. İlham Əliyevin savadı var və ermənilərin tarixini özlərindən yaxşı bilir. O bilir ki, Ermənistan beynəlxalq hüquq və normalara, müqavilə adlanan sənədlərə arxalana bilməz. İlham Əliyev daha rasionaldır, olduğu kimi danışır. Gördünüz, Avropanı, Rusiyanı, Amerikanı öz kəmərinin altına qoyub, istədiyini etdi. Təbii ki, o, eyni ruhda davam edəcək".

### "Ermənistan nəhəng əyalət bataqlığıdır"

"Erməni xalqına gəlincə, beynəlxalq münasibətlərdən, təhlükəsizlikdən heç bir anlayışı olmayan korrupsioner jurnalistlər və qondarma ekspertlərin fırıldaq şərhlərini dinləmək məcburiyyətindədir. İlham Əliyev daha ağıllı və bacarıqlı rəhbərdir. O, Azərbaycanda belə şeylərin baş verməsinin qarşısını alıb", - deyən politoloq sonda qeyd edib ki, o, Ermənistanı nəhəng əyalət bataqlığına bənzədir: "Ermənilərin sevimli janrı kofe fallarıdır. İnsanlar öz xəyallarını içdikləri qəhvələr əsasında müzakirə etməyə üstünlük verirlər. Erməni cəmiyyəti qəhvə qabının dibində ilişib qalan simvollarla idarə olunur. Budur, erməni cəmiyyətinin mahiyyəti".

***Afət Tahirqızı***

# Bank kartlarından pulları necə oğurlayırlar?

## *AYDINLIQ GƏTİRİLDİ*





"Kiberdələduzlar və kibercinayətkarların əsas fəaliyyətləri maddiyyat və maddiyyatyönümlü datalar əldə etməkdir. Bir cinayət və ya kibertəhdid baş veribsə, bunun təməlində maddiyyat əldə etmək durur. Bizim sosial həyatımızda da belədir - insanlar bir-birini aldatmaqla, fırıldaqçılıqla pul qazanmağa çalışırlar. Kibercinayətlər də həmin fəaliyyətlərin elektron versiyasıdır. Günümüzdə bu cür hallar baş verir. Çünki elektron dünyada, o cümlədən, Azərbaycanda da vətəndaşlar daha çox kart məlumatlarından, bank köçürmələrindən istifadə edirlər. Təbii ki, özü ilə birlikdə bu rahatlıqlar həmçinin də təhlükəsizlik məsələlərini gündəmə gətirir. Bu sözləri SİA-ya açıqlamasında kibertəhlükəsizlik üzrə ekspert Şahin Alıyev deyib.

Onun sözlərinə görə, bu məsələlərin əsas təməli şəxsi təhlükəsizlikdir: "Bu barədə çox təəssüf ki, toplumumuz hələ ki geniş miqyasda maarifləməyib və anlamayıblar. Ona görə də günümüzdə kibertəhdid və kibercinayətlərin sayı artıb. Əslində, biz bu cür fırıldaqçılıqları kibercinayət də adlandıra bilmərik. Çünki kibercinayət hər hansı bir kiberinsident baş verdiyində orada texniki məsələlərin, şəxsi məlumatların oğurlanması, datanın oğurlanması, kompyuter və kompyuter vasitələrinə qanunsuz müdaxilə kimi hallar olduğu halda kiberinsident və kibercinayətdən söz gedə bilər. Bu, sadəcə fırıldaqçılıq növüdür - mütləq ki, kiberdələduzlar etməsə də normal şəxslər, yəni sosial mediada tanımadığımız şəxs etdiyi halda da eyni mahiyyəti daşıyır. Buna görə də, bu cür halların baş verməsi normaldır, əsas olan vətəndaşların maariflənməsi və dələduzlara qarşı immunitet yarada bilməsidir. Təbii ki, bizim fəaliyyətlərimiz, cəmiyyətdəki kibertəhlükəsizlik və kiberinsidentlərə qarşı mübarizənin artırılması istiqamətində aparılan islahatlar, qanuna dəyişikliklər və əsasən, toplumsal maarifləndirmələrin hər zaman yüksək olması vacibdir. Bu cür halların baş verməməsi üçün də vətəndaşlar daha diqqətli olmalıdır".

Ekspert sözlərinə davam edərək bildirib ki, bank kartları ilə dələduzluqlar normalda kiberdələduzlar və ya kibercinayətkarların şəxsi məlumatları, bankın istifadəçiyə verdiyi məlumatları ələ keçirən zaman baş verir: "Bundan sonra artıq pulu çəkmək və ya pulu hər hansı bir yerə yönəltmək asan olur. Önəmli olan da bankın bizlərə verdiyi təhlükəsizlik siyasətini bildiyimiz halda biz bu cür dələduzluqlara qarşı immunitet yaradıb yeri gələndə onların bu hərəkətlərinin qarşısını almış olarıq. Banklarda da bu şəkildə pul oğurlanır və ya hansısa bir karta köçürülür. Bu şəkildə onlayn kartlarda günümüzdə digər məsələlərdə çox önəmli məsələlərdir ki, vasitəçilik rolu oynayan bankın təsdiqləmədiyi veb-saytlar, fişinqlər və digər məsələlər də var ki, bunlar fırıldaqçıların əsas hədəf nöqtəsidir. İnsanların psixoloji vəziyyətindən, fikirlər, düşüncələr, boşluqlarından yararlanaraq öz xeyirlərinə istifadə edirlər. Əlbəttə ki, fişinq hücumları ölkəmizdə də bankların adından edilir. Təkrar vurğulayım ki, bu cür halların qarşısını yalnız maariflənmək ala bilər. Digər məsələlər və vasitəçilik dediyimiz veb-saytlar ola bilər, hər hansı aldadıcı səhifələr və ya peyklər də ola bilər. Bu cür hallarda da vətəndaşlar müəyyən qədər fırıldaqçılara aldanırlar. Həmçinin oyunlar və ya əyləncə məqsədli saytlarda da baş verir".

***Ləman Sərraf***




# "Nar"dan sahibkarlar üçün sərfəli təkliflər

Müştərilərin asanlıqla korporativ təkliflərdən yararlanmağı üçün artıq Bakı və bölgələrdə yerləşən "Nar" Satış Xidmət Mərkəzləri də fərdi sahibkarlar üçün korporativ nömrələr təqdim edəcək. İstənilən VÖEN-ə sahib şəxs, sadəcə şəxsiyyət vəsiqəsi ilə, xidmət mərkəzlərindən birinə yaxınlaşaraq "Nar" korporativ nömrəsi əldə edə bilər.

"Nar" Satış və Xidmət Mərkəzlərində, fərdi sahibkarlarla yanaşı, dövlət qurumlarının əməkdaşları da korporativ təkliflərdən yararlanmaq imkanı əldə edirlər. Müraciət edən şəxs əməkdaş vəsiqəsini də təqdim edərək 3 korporativ nömrə əldə edə bilər.

Nar.az/corporate səhifəsinə keçid edərək "Nar"ın korporativ təklifləri haqqında ətraflı məlumat əldə edə və həmçinin "Nar"ın korporativ satış şöbəsi ilə əlaqə saxlaya bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Sözünə sadiq Azərbaycan

Azərbaycan son illər ərzində nümayiş etdirdiyi yüksək inkişaf tempi ilə yerləşdiyi regionda lider dövlətə çevrilib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənib. Bu gün Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündəngünə artan dövlətinə çevrilib. Əldə edilən dinamik inkişaf, sarsılmaz ictimai-siyasi sabitlik göstərir ki, müasir müstəqil Azərbaycanın seçdiyi strateji yol milli maraqlara əsaslanır. Bu inkişaf göstəriciləri ayrı-ayrı sahələrin paralel tərəqqisi fonunda müşahidə olunur. Azərbaycanın dinamik inkişafı bu il də uğurla davam etməkdədir. Müşahidə etdiyimiz müsbət inkişaf tendensiyalar, əldə olunan nəticələr bunu bir daha deməyə əsas verir.

Müasir Azərbaycan özünün yeni bir inkişaf dövrünü yaşayır. Zəfər qazanmış Azərbaycanın hər bir sahəsində onu uğurlar müşayiət edir. Bu gün Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı möhtəşəm yenidənqurma işləri də ölkənin iqtisadi qüdrətinin daha bir nümayişi kimi qiymətləndirilir: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik. Bununla paralel olaraq, sosial məsələləri həll edirik və edəcəyik, heç kimin bunda şübhəsi olmasın. Çünki yenə də bunu özümüzə mənəvi borc bilirik və bizim sosial siyasətimiz hər zaman belə olub", - deyə Prezident çıxışlarının birində bildirmişdir.











## KÖÇ KARVANLARI MƏNZİL BAŞINA YOL ALIR

Prezident İlham Əliyevin söylədiyi fikri vurğulamaq yerinə düşər: "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər". Artıq neçə müddətdir ki, həsrətlə gözlədiyimiz o xoşbəxt, möhtəşəm günlərə şahidlik etdik. Ard-arda köç karvanları mənzil başına yol alır. Nə yaxşı ki, bu günü görmək bizlərə nəsib oldu. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Tariximizə yazılacaq Böyük Qayıdışın ilk karvanı əzəli torpağımıza yol aldı. 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdağından azad etdi. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünü göstərdi. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətləndi və ardıcıllıqla həyata keçirilir.

Bu gün böyük abadlıq quruculuq işləri davam etdirilir. Tikilən yeni evlər, ictimai binalar, sosial obyektlər tezliklə işğaldan azad olunan ərazilərimizi müasir şəhərə çevirəcək. Azərbaycan daha bir modelini ortaya qoyur.

## KEÇMİŞ KÖÇKÜNLƏR ƏZƏLİ TORPAQLARINDA

İşğal altında qalmış ərazilərimizdə də abadlıq-quruculuq işlərinə başlayıb, infrastruktur layihələr uğurla icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq". Bəli, şəhər və kəndlərimizə yeni bir həyat gəlib. Tarixi mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Azərbaycan qısa bir zamanda keçmiş köçkünlərini öz əzəli torpaqlarında rahat şəraitlə təmin etməkdə davamlı tədbirlərə imza atır. Zəngilan rayonu Ağalı kəndində yaşanılan canlı həyatdan sonra əzəli sakinləri sorağı digər ərazilərdən eşidilir. Tərtərin Talış kəndindən, daha sonra Laçından, Füzulidən əzəli sakinlərin sevinc səsləri gəlir. Vaxtı ilə qovhaqovla əzəli torpqların göz yaşları içində tərk edənlər bu gün sevinc payını bu torpaqlarda bölüşürlər. Haqq, ədalət bərpa olunub. Azərbaycanın dilbər guşəsi Qarabağımız və Şərqi Zəngəzur müasir dünyamızda yeni dövrünü yaşayır. Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir.

Üç il bundan əvvəl Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri düşmən tapdağından azad olundu. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə, eləcə də Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Füzuli geniş abadlıq-quruculuq meydanına çevrilib. Beynəlxalq Hava Limanında istifadəyə verilməsi, Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi, çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasından soraqdır. Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməli dövlət başçımız tərəfindən qoyuldu. Üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq. Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

## 2 MİNƏ YAXIN FÜZULİLİ DOĞMA YURDDA

Füzuli şəhərində dövlət başçısı tərəfindən inzibati binanın da təməli qoyulub. İnzibati binanın inşa olunacağı şəhərin mərkəzi ərazisində 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün isə 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada parad meydanı, bir hektar sahədə park inşa olunacaq. Bundan başqa, digər regional qurumlar üçün də ərazi nəzərdə tutulub. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.

Xatırladaq ki, ilk köç karvanı ilə Füzuliyə 23 ailə doğma şəhərinə qayıtdı. Bu davamlı olaraq həyata keçirildi. Dövlət başçımızın bildirdiyi kimi, ilin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu.

Bəli, karvanlar bizi əzəli torpaqlarımıza aparır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün, yəni dekabrın 13-də növbəti köç karvanı ilə Füzuliyə çatan ailələr böyük bir sevinc yaşayacaqlar. Qəribsəmiş yyerlər sakinlərinə qucaq açır. Bildiyimiz kimi, bu günə qədər Füzuli şəhərində 333 ailə olmaqla, 1186 nəfərin daimi məskunlaşması təmin edilib.

Keçmiş məcburi köçkünlər 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıdırlar. Füzuli şəhərinin sakinləri də hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

***Zümrüd BAYRAMOVA***

# Rusiyalı ekspert: "Ermənistanın inkişafı üçün Azərbaycanla sülh müqaviləsi vacibdir"




**Ermənistanın baş naziri Nikol Paşinyan deyib ki, separatçı qondarma Dağlıq Qarabağ Respublikasının ləğvi qaçılmaz idi və Ermənistan Respublikası bütün bu onilliklər ərzində öz inkişafına sərmayə yatırmaq əvəzinə yalnız ona vəsait xərcləyib. Və bütün bu onilliklər ərzində Ermənistanda Qarabağ məsələsinə münasibət kifayət qədər "emosional" olub. "Deyirlər ki, Dağlıq Qarabağın indiki hakimiyyəti onu ləğv edib. Amma əslində 2016-cı ilin avqustunda danışıqlar prosesində substantiv dəyişikliklər nəticəsində bu proses qaçılmaz oldu", - baş nazir deyib.**

Onun sözlərinə görə, Ermənistanın hazırkı rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələrək Qarabağ probleminin emosional qavranılmasının daşıyıcısı olmaqda davam edib. "Biz hakimiyyətə gələndə təbliğat obyekti statusumuz dəyişdi, informasiya daşıyıcısına çevrildik. Və biz gördük ki, emosional qavrayışla reallıq arasında böyük uçurum var",- Ermənistan hökumətinin başçısı vurğulayıb. Paşinyan qeyd edib ki, indiki hakimiyyətin günahı bu barədə xalqla danışmamasıdır, hətta onun özü də bu praqmatik reallıqla barışa bilmir.

"Biz dövlətin, Ermənistan Respublikasının inkişafına sərf etməli olduğumuz bütün resursu həllolunmaz problemə qoyduq", - o əlavə edib. Tanınmış rusiyalı politoloq, Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Ermənistanın baş nazirinin bəyanatlarını "deşifrə edib". Müsahibəni oxucularımıza təqdim edirik.

- Dmitri Vladimiroviç, son vaxtlar Ermənistan hakimiyyəti ölkə daxilində açıq bəyanatlarla Qarabağ məsələsinin onlar üçün qapalı olduğunu açıq şəkildə bildirir. Eyni zamanda Ermənistana köçən separatçılar bu məsələnin onlar üçün açıq qaldığını nümayiş etdirməyə çalışırlar. Artıq hakim partiya bu yanaşmanı respublikanın dövlətçiliyinin altına bomba qoymaq cəhdi adlandırıb.

*- Bir tərəfdən, Nikol Paşinyanın dedikləri tamamilə doğrudur və təbii ki, bütün bu onilliklər ərzində Ermənistan ilk növbədə öz dövlətçiliyinin, iqtisadiyyatının inkişafı ilə məşğul olmalı, yad əraziləri saxlamamalı, işğalın təşviqinə böyük məbləğdə sərmayə qoymamalı, işğal olunmuş ərazilərdən heç bir şəkildə istifadə etməməli idi. Paşinyanın Ermənistanın Qarabağa münasibətinin reallıq deyil, "emosiya" olması barədə bəyanatları Bakı ilə sülh üçün yaxşı siqnaldır.*

Diqqət yetirməyə dəyər daha bir məqam: Paşinyan hakimiyyətə gələndə və İkinci Qarabağ müharibəsindən əvvəl o, sələfləri kimi Qarabağ kartından çox fəal istifadə edirdi. Baxmayaraq ki, o, "Qarabağ klanı"na mənsub deyildi. Görünür, sərfəli olduğu üçün istifadə etdi. Onun hakimiyyəti altında o vaxtkı müdafiə naziri yeni ərazilər uğrunda yeni müharibə ilə bağlı tezis səsləndirdi, Paşinyan Qarabağın Ermənistan olduğunu bildirdi. Amerikalı imicmeykerlər ölkədə baş verən "məxməri inqilab" zamanı onu hakimiyyətə gətirəndə Ermənistanın gələcək baş naziri üçün Qarabağ müharibəsi veteranı obrazı yaratmışdılar. Populyar obrazdan istifadə edilib, çünki onun yaradıcıları seçicilərin "zövqünü" bilirdilər.

İndi isə Paşinyan Qarabağla bağlı bütün bu açıqlamaları ilə elə "havada salto" etdi- onu geri qaytarmağın vaxtı çoxdan çatmış idi dedi. Sözlər düzdür, amma bunu ondan eşitmək gülməlidir. O, əvvəlki rəhbərliyi Qarabağı "təslim etmək" cəhdində ittiham edib. Əla. Burada biz ənənəvi müasir siyasi üslubu görürük: əvvəl nə dediyiniz önəmli deyil, önəmli olan indi nə dediyinizdir. Sanki internet heç nəyi xatırlamır. Bu taktika indi yüksək səslə nəsə demək və informasiya resursları vasitəsilə bu nöqteyi-nəzərdən irəli çəkməkdir.

*- Paşinyanın bu cür bəyanatları nə deyir?*

- Bu, Qarabağın "təslim olması" söhbətindən qorunmaq, müxalifəti ittiham etmək, eyni zamanda ölkənin inkişafı üçün yeni siyasi vektor irəli sürmək istəyidir. Paşinyan Qarabağın Ermənistan üçün qulpsuz çamadan olması fikrini təbliğ etməyə davam edəcək. Ermənistan isə ondan imtina etdi və beləliklə, ölkənin problemi daha az oldu. Qarşıda parlaq gələcək var, indi Qarabağ hər şeyimizdir deyən hər kəs yanılır.

Bəli, Ermənistan Azərbaycan ərazilərinə olan iddialarından çoxdan əl çəkməli və bununla da böhrandan çıxmalı idi. Ermənistan reallığı obyektiv qəbul edib Qarabağsız inkişaf etməli, Azərbaycandan sülhü qəbul etməlidir.

Bu mövzu altında o, əvvəlki hakimiyyətin nümayəndələrinin yeni təmizləmələrini təşkil edə bilər və özünün işarə etdiyi kimi, Ermənistanın bütün bu illər ərzində taleyi bəlli olan, ilk baxışda həlli mümkün olmayan problemi həll etməyə çalışdığını izah edə bilər. Və rasionalizm əvəzinə onu emosiyalar idarə edirdi. Əslində, o, ikinci Qarabağ müharibəsi zamanı Lavrovun ifadəsini öz şərhində təkrar etdi ki, Ermənistan hakimiyyəti bütün bu illər ərzində öz xalqına buranın onların ərazisi olmadığını başa salmalı olub.

Amma Qarabağı tərk etmiş separatçıların öz məsələsini, separatçıların formalaşması məsələsini bərpa etmək cəhdlərinin hələ də davam etdiyini görürük. Amma hətta Ermənistan hakimiyyəti artıq bu cəhdləri qəti və sərt şəkildə yatırır. Onların Ermənistan ərazisində hər hansı qurum və ya struktur yaratmaq cəhdləri rədd edilir. Artıq Ermənistanın hakim partiyası tərəfindən bu cəhdlər Ermənistan dövlətçiliyinin altına bomba qoymaqla müqayisə edilir.

İndi Ermənistanın siyasi həyatında hər kəs öz strategiyasını seçəcək. Bəzi qüvvələr revanşist əhval-ruhiyyə ilə oynayacaqlar. Və Paşinyanı "Ermənistana və milli maraqlara xəyanət etməkdə" ittiham etməkdə davam edirlər. Hakimiyyət Ermənistanın gələcəyini yeni səhifədən qurmağa cəhd edə bilər.

Ötən həftə Bakı ilə İrəvan arasında əldə olunan birbaşa razılaşmaları nəzərə alsaq, Ermənistanın da Azərbaycanla mümkün sülh variantını hesabladığı göz qabağındadır. İrəvanla Bakı arasında gərginlik getdikcə azalır. Və əgər Paşinyan Azərbaycanla sülh ideyasını cəmiyyətə uğurla çatdırarsa, bəlkə də bundan faydalanar. Yenə də obyektiv olaraq sadə əhali iqtisadi cəhətdən firavan yaşamaq istəyir.

Amma bu, həm Azərbaycan, həm də Ermənistan Respublikasının özü üçün bu müsbət hal mənfi hallarla müşayiət olunacaq. Həm Moskva, həm də Bakı üçün. İrəvan 180 dərəcə dönüş edəcək. Ermənistan əvvəllər yaşadığı hər şeydən, o cümlədən Rusiya ilə müttəfiqliyindən imtina edəcək. O, Aİ və NATO ilə yarı yolda görüşəcək.

Bakı ilə İrəvan arasında bağlanan sülh müqaviləsində şeytan yenə təfərrüatlardadır. Ermənistan-Azərbaycan nizamlanmasının qaçılmaz olması, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatının həyata keçirilməsinin qaçılmaz olması hissi hələ 3 il əvvəl İkinci Qarabağ müharibəsindən sonra yaranmışdı. Amma bildiyimiz kimi, İrəvan bu bəyanatın bəzi bəndlərinin icrasını ləngitməyə başladı və o yerə çatdı ki, Bakı özü İrəvanı bu məqamları yerinə yetirməyə məcbur etdi. Moskva vəziyyətə müdaxilə etmədi.

İndi biz elə vəziyyətə qayıdırıq ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sazişin imzalanması mümkün olur. Amma üç il bundan əvvəl proses başlayanda və sonra Ermənistan tərəfindən məhdudlaşdırıldığı kimi, indi də hər şeyi eyni şəkildə məhdudlaşdırmaq olar. Fərqli olacağına dair dəqiq zəmanət yoxdur.

Üstəlik, biz görürük ki, Ermənistan, rəsmi Moskvanın dəfələrlə bəyan etdiyi kimi, Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla nəqliyyat kommunikasiyalarının bloklanmasına dair konkret sənədləri imzalamaqdan dəfələrlə imtina edib, lakin eyni zamanda, hazırda Qərbdə fəal surətdə aqressivlik ideyasını təbliğ edir. "Dünyanın kəsişməsi" adlandırdığı blokun açılması təklifi ilə.

Bəli, biz sülh prosesinin müsbət istiqamətdə inkişaf etdirilməsinin mümkünlüyünü görürük. Bu, üç il əvvəl Ermənistana sərfəli idi. İndi də sərfəlidir. Onun qonşuları ilə normal iqtisadi əməkdaşlığa, açıq sərhədlərə, azad ticarətə, yeni investisiyalara, yeni istehsala ehtiyacı var. Bu, Ermənistanın gələcəyi ola bilər. Və İrəvan bu seçimi edə bilər. Ermənistan hakimiyyəti isə bu mövzunu təbliğ edəcək ki, Qarabağın onilliklər ərzində işğalı ölkə üçün əldən verilmiş böyük fürsətdir.

*- Bakı və İrəvanın birbaşa danışıqlar zamanı razılıq əldə etməsini Ermənistan-Azərbaycan məsələsi tarixində nə dərəcədə unikal hadisə adlandırmaq olar?*

- Bakı bu birbaşa danışıqlar ideyasını irəli sürür, çünki Qarabağ məsələsi bağlıdır və indi birbaşa danışıqlar məntiqlidir. Bundan əlavə, Fransa kimi bəzi dövlətlər açıq-aşkar birtərəfli mövqe tutur və yalnız İrəvanla Bakı arasında münasibətlərin normal qurulmasına mane olurlar.

Ümid edirik ki, dekabrda Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi sammitində ikitərəfli sammitin keçirilməsi ehtimalı olacaq.

*- Ermənistan Təhlükəsizlik Şurasının katibi bu yaxınlarda Azərbaycanla sülh müqaviləsinin tezliklə imzalanmasına işarə verdi, amma yenə də imzalanmanın təminatçılarının olması lazım olduğunu dilə gətirdi...*

- Problemlər burada başlayır və ya davam edir. Çünki təkcə bizim sülhə hazır olduğumuzu bildirmək kifayət deyil, çünki ondan sonra sazişin bağlanması üçün əsas ola biləcək "əgər"lər var. Bakı özünü nüfuzdan salan zaminlərlə sənəd imzalamayacaq. Ona ehtiyac yoxdur. BMT və ATƏT kimi beynəlxalq təşkilatlar da özlərini gözdən salıblar, onların "zəmanətlərini" işlək adlandırmaq çətindir. Biz bunu artıq onların son 30 ildə Qarabağ münaqişəsinin həlli ilə necə "öhdəsindən gəldiklərində" gördük. Əgər qarant ölkələrin konsensus əsasında seçilməsindən danışırıqsa, bu da bugünkü geosiyasi vəziyyətdə qeyri-real görünür. Tutaq ki, bu, Rusiya, Türkiyə və məsələn, Aİ və ya ABŞ-dır. Ermənistan Rusiyanın vasitəçiliyini istəmir və Aİ və ya ABŞ-ın zəmanətləri çətin ki, Bakıya tam uyğun gəlsin. Ona görə də Azərbaycan birbaşa danışıqların tərəfdarı olmaqda davam edir.

***Tərcümə - Elçin Bayramlı***

## FELYETON

# İmtahan, imtahan, yenə də imtahan...



-Molla əmi, imtahan nədən yanadır?

-Nədən yana olacaq, ay bala, adamın biliyini göstərməsindən yana.

-Ay Molla əmi, bir insan ömründə neçə dəfə imtahan verməlidir?

Molla əmi fikirləşir. Aradan xeyli vaxt keçir, elə hey fikirləşir.

-Ay Molla əmi, nə oldu?

Molla əmi susur. Şəhadət barmağını gicgahının üzərinə qoyub gözlərini yumur, dərin bir nəfəs alır. Birdən gözlərini açıb ətrafı yaxşıca süzür və deyir:

-İmtahan var, imtahan da... Təhsil almaq istəyəndə hökmən verməlisən. Bir də Allah qarşısında imtahan var.

-Yox, Molla əmi, Allah qarşısındakı imtahanı bura qatmayaq. Gəl, hələlik elə təhsildəki imtahandan danışaq. Bax, sizin vaxtınızda nə məktəb vardı, nə də təhsil. "Molla Nəsrəddin" camaatın maariflənməsi yolunda canını qoydu, elədirmi?

-Əlbəttə, elədir.

-Sonra da ölkəmiz başdan-başa məktəblərlə doldu. Uşaqlarımız məktəblərə getdi, təhsil aldı. Universitetlər, institutlar, texnikum, kolleclər yaradıldı. Təhsil alanların sayı hər il artdı. Və biz ziyalı bir cəmiyyəti formalaşdıra bildik. Sonra nə oldu, bilirsən?

-Nə oldu, bala?

-O oldu ki, bizim insanları imtahan etməkdən o qədər xoşumuz gəldi ki, başladıq onları işləmək üçün də imtahan etməyə...

-Bıy, başıma xeyir. Məgər onları darelfunlara götürəndə imtahan etməmişdiniz?

-Əlbəttə, etmişdik.

-Bəs iş üçün nə imtahan?

-Nə bilim, Molla əmi, elə bunu səndən soruşmaq istəyirəm də.

-Ay bala, onda belə çıxır ki, sizin özünüzün özünüzə inamı yoxdur.

-Ola bilər, özümüzə inanmayaq?

-Niyə olmur ki. Bəs yaxşı, bundan imtahan götürüb darelfuna qəbul etmişiniz, bəs işləmək üçün nə imtahan? Belə çıxır ki, siz nə özünüzə inanırsınız, nə də təhsilinizə.

***

Söhbətin bu yerində ağsaqqal Hüseyn müəllim bizə yaxınlaşdı. Söhbətdən halı olar-olmaz kişinin dərdi açıldı. Üzünü Molla əmiyə tutub:

-Ay qardaş, 60 yaşım var, məktəbdə uzun illərdir ki, işləyirəm. Məni hər il aparıb dərs dediyim uşaqlarla birlikdə imtahana salırlar, sertifikasiya imtahanıdır, deyirlər. O günü imtahanda gənc müəllimlərdən biri mənə nə desə yaxşıdır? Ay Hüseyn müəllim, nə qədər imtahan olar? Bunlar bizdən nə istəyirlər?

Ta heç nə demədim. Yadıma gölə su içməyə gələn maralla qurbağanın söhbəti düşdü. Qurbağa marala deyir ki, bu ovçu sən maraldan, mən maraldan nə istəyir? Maral da deyir ki, qurbağa, ovçunun oxu məni öldürməzdi, sənin bu sözün məni məhv etdi.

Bu söhbətdən necə əsəbiləşdimsə, dedim ki, Lenin "oxumaq, oxumaq, yenə də oxumaq" deyə bilirdi, biz imtahan, imtahan, yenə də imtahan keçirə bilmirik?

***Mətanət Məmmədova***

# Zəlzələ həyət və bina evlərinin qiymətinə necə təsir etdi?

İlk olaraq qeyd edək ki, ötən günlərdə, yəni 7 dekabr tarixində yerli vaxtla saat 08:16-da Xəzər dənizində maqnitidası 5.6 olan zəlzələ baş vermişdi. Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilmişdi ki, zəlzələ Xəzər dənizinə yaxın olan rayonlarda və Abşeron yarımadasında bəzi yerlərdə 5 bal, bəzi yerlərdə isə 3 bala qədər hiss olunub. Zəlzələ ocağının dərinliyi 68 km. Zəlzələnin episentri Siyəzən stansiyasından 60 km şərqdə Xəzər dənizində olub.

Bəs, gəlin görək bu vəziyyət bina və həyət evlərinin qiymətlərinə necə təsir edib? SİA mövzu ilə bağlı araşdırma aparıb.

### İlk olaraq baxaq, dünyada vəziyyət necədir?





Türkiyənin Kahramanmaraş şəhərində baş verən zəlzələdən sonra fərdi ev qiymətlərindəki artımı qiymətləndirən daşınmaz əmlak ekspertləri bu evlərə tələbatın gündən-günə artdığını bildiriblər. Belə ki, zəlzələdən sonra bağlara və fərdi yaşayış evlərinə (həyət evlərinə) tələbat artıb və bu qiymətlərdə də özünü göstərib.

Fərdi evlərin qiymətlərinin artmasının zəlzələdən sonra daha yüksək mərtəbələrə çıxa bilməmək qorxusundan qaynaqlandığını vurğulayan ekspertlər daşınmaz əmlakın qiymətində artım olduğunu, lakin fərdi evlərin çox yüksək qiymətə olduğuna diqqət çəkiblər.

Türk mediasına mövzu ilə bağlı daşınmaz əmlak eksperti Murat Kandıra danışıb. O bildirib ki, zəlzələdən sonra fərdi evlərin, bağ evlərinin, villaların və torpaq sahələrinin qiymətləri artıb: "Bu evlərin qiyməti digərlərinə nisbətən 2-3 dəfə artıb".

Maddi vəziyyəti yaxşı olan insanların mənzilləri tərk edərək fərdi evlərə köçdüyünü vurğulayan Kandıra, "Maddi vəziyyəti aşağı olan insanlar daha çox kənd yerlərindəki fərdi evlərə köçürlər. Amma satışların artıb artmadığını soruşsanız, yox. Satışlar azalır və qiymətlər dayanmadan yüksəlir. Təklif yüksək, tələb isə aşağı olsa da, qiymətlər daim yüksəlir. Buna ölkədəki inflyasiya təkan verir".

Kandıra, "Əvvəllər fərdi evlər və bağ evləri investisiya məqsədi ilə alınırdısa, indi yalnız vacib ehtiyac olaraq alınır" dedi.

Zəlzələdən sonra bağ, fərdi yaşayış evi və bağçalı villa tipli evlərin tikintisində artım olduğunu bildirən Kandıra, "Yeni qəsəbələrdə villalar tikilir və çox baha qiymətə satılır. Məsələn, zəlzələdən əvvəl təxminən 1 milyon əhalisi olan bir bölgədə villa tipli həyət evləri indi 3-4 milyon civarındadır. Əlbəttə, zəlzələnin ilk günlərində onların satış qiymətləri daha çox yüksək idi, amma indi düşünürəm ki, zəlzələ qorxusu azaldığından satışlar durğunlaşıb.

Qaziantepdə zəlzələdən əziyyət çəkən on mərtəbəli binanın 2-ci mərtəbəsində yaşayan İlhami Özer açıqlamasında zəlzələdən əvvəl bağ evi almağı düşündüklərini, lakin zəlzələdən sonra bunun xəyala çevrildiyini deyib. Özer, "Uşaqlarım üçün həyət evim olsun istədim. Bu səbəbdən şəhərə yaxın bir bağ evi almağı düşünürdüm. Zəlzələdən sonra vəziyyət dəyişdi. Hündürmərtəbəli binalar artıq fobiyamıza çevrilib. Biz zəlzələ zamanı hündürmərtəbəli binaların bir çox insan üçün necə qəbirə çevrildiyini gördük. Uşaqlarım hər gecə zəlzələ qorxusu ilə yatır. Bəlkə bir qohumla birgə bu evi almağa çalışacağıq. Başqa yolla əldə etmək çətindir" dedi.

7 mərtəbəli yaşayış binasının 5-ci mərtəbəsində yaşayan Mehmet Kılıç dağıntıları gördükdən sonra ilk işinin bağı evi almaq olduğunu deyib: "Uşaqlarım və həyat yoldaşım o gecənin qorxusunu hələ də atmayıblar. Sosial şəbəkələrdə həmin dağıntının görüntülərini gördükdən sonra daha bina evində yaşaya bilmədik. Nəhayət bağ evi aldıq. İnsanlar mənzillərdən bağları olan fərdi evlərə qaçırlar. Amma təəssüf ki, hər kəsin alıcılıq qabiliyyəti yoxdur. Daha doğrusu buna imkanı çatmayan insanlar çoxdur".

### Həyət evinin üstünlükləri

*Təbiətlə daim vəhdətdə olacaqsınız. Həmçinin, təmiz hava ala biləcək və səs-küysüz sağlam bir həyata qovuşacaqsınız.



*Avtomobilinizi vaxt itirmədən park edə biləcəyiniz qarajınız olacaq. Nəticədə aylıq xərclərdən xilas olacaqsınız.

* İstədiyiniz bitkiləri əkib-biçə biləcək və onların qayğısına qalacaqsınız.

* Dənizə getməyə ehtiyac qalmayacaq. Həyətinizdəki hovuz və hovuzətrafı zonada əyləncəksiniz. Bir sözlə, dənizi evinizə gətirəcəksiniz.

* Tüstü və şəhərin zərərli qoxuları sizi narahat etmədən öz əllərinizlə ləziz yeməklər bişirə biləcəyiniz manqalxana və həmin yeməkləri sevdiklərinizlə birgə nuş edə biləcəyiniz həyətə sahib olacaqsınız.

* Sevimli bir ev heyvanı sahiblənmək istədiyinizdə artıq qonşularınıza görə narahat olmayacaqsınız.

### Həyət evlərinin mənfi cəhətləri

- Fərdi evə sahib olmaq özü ilə böyük məsuliyyət gətirir. Çünki ev sahibi evin bütün ehtiyaclarını qarşılamalıdır. Evin daxili və xaricində olan bitkilərin baxımı, təmir işləri kimi bir çox mövzuda ev sahibi səy göstərilməlidir.

- Hər hansı bir təhlükənin qarşısını almaq üçün elektrik, su və təbii qaz qurğuları mütəmadi olaraq yoxlanılmalı və onların təmiri dayandırılmamalıdır. Belə bir yükü üzərinə götürmək istəməyən və ya vaxtı olmayan insanlar üçün fərdi evdə yaşamaq mənasızdır.

- Əsl fərdi evlər daha çox şəhər həyatından uzaqda yerləşir. Bu bəzi insanlar üçün üstünlük olsa da, bəziləri üçün əlverişsiz ola bilər. Çünki burada yaşayan insanlar işə, məktəbə və ya alış-verişə getmək üçün hər gün müəyyən məsafə qət etməli olurlar. Hər gün bu sıxıntıya dözməyi sevmirsinizsə, fərdi ev əvəzinə mənzildə yaşamağı seçə bilərsiniz.

- İstilik problemi fərdi evlər üçün böyük çətinlik yaradır. Çünki burada istilik xərcləri mənzillərdən daha yüksəkdir. Ərazi böyük olduğundan və ətrafda başqa tikili olmadığından ev soyuq havaya açıqdır. Müvafiq olaraq, istilik xərcləri yüksəkdir.

- Fərdi evlərin ən böyük problemlərindən biri təhlükəsizlikdir. Kənardan gələ biləcək təhlükələrə qarşı mənzildən daha az qorunur. Qapı və ya pəncərələrə çatmaq daha asan olduğundan oğurluq baş verə bilər. Ev sahibi evdə güclü kilid sistemləri, kamera sistemləri və siqnalizasiya sistemləri quraşdırmalıdır. Bu vəziyyət ev üçün çəkilən xərclərin artmasına səbəb olur.

- Fərdi evlər yüksək qiymətə alıcı tapır. Bu səbəbdən tikinti xərcləri yüksək olan fərdi yaşayış evlərinin qiymətləri yüksəkdir. Bunu da hər adam ala bilmir və fərdi evin mənfi cəhətlərindən biridir.

### Həyət evi axtararkən bunlara diqqət edin

- Evin yeri və yerləşdiyi mühit ehtiyaclara uyğun olaraq müəyyən edilməlidir.

- Evin struktur vəziyyətini yoxlamaq lazımdır. Bünövrədə və ya divarlarda çatlar varmı? Nəmlə bağlı problemi var? Bunları diqqətlə araşdırmalısınız.

- Xüsusən də satış üçün fərdi yaşayış evi seçərkən hər hansı hüquqi maneənin olub-olmadığı yoxlanılmalıdır. Əgər evlə bağlı borc varsa və ya evin sənədini əldə etməyə mane olan hal varsa, dərhal başqa alternativə müraciət etməlisiniz.

- Ən çox diqqət etməli olduğunuz məsələlərdən biri də evin davamlılığıdır. Onun tikintisində zəlzələyə davamlı materiallardan istifadə edilməsi çox vacibdir. Bu məsələ həyati əhəmiyyət kəsb etdiyi üçün diqqətlə araşdırılmalıdır.

- Evin hansı təhlükəsizlik sistemlərinə sahib olduğunu soruşmaq lazımdır. Seçdiyiniz fərdi yaşayış evinin yüksək səviyyəli mühafizə sistemləri ilə təchiz olunması təhlükəsizliyiniz üçün çox önəmlidir.

### Bina evlərinin mənfi cəhətləri

-Bir mənzildə yaşayırsınızsa, bütün qonşularınızla bölüşməli olduğunuz həyətyanı sahə və dayanacaqlar kimi bəzi ərazilər var. Buna görə də, mənzillərdə yaşayan insanların şəxsi sahəsi çox deyil. Fərdi evlərdə isə vəziyyət tam əksinədir. Fərdi evdə yaşamaq şəxsi məkan baxımından çox sərfəlidir.

-Böyük ev və geniş bağ hər bir ailənin arzusudur. Fərdi evlər bu xəyalın gerçəkləşməsinə kömək edir.

- Bağ evində istədiyiniz çiçəkləri, tərəvəzləri və meyvələri yetişdirə bilərsiniz. Torpaqla qarşılıqlı əlaqə quraraq, bütün stresinizi aradan qaldıra bilərsiniz. Bundan əlavə, siz bağçanızı gözəlləşdirə və bağ mebelləri ilə rahat yaşayış sahəsi yarada bilərsiniz. Bina evində isə bu mümkün deyil.

- Fərdi evlər təkcə sizin üçün deyil, kiçik dostlarınız üçün də azadlıq qapısıdır. Mənzillərdə ev heyvanlarınızın azadlığı qaçılmaz olaraq məhdudlaşdırılır. Oyun oynamaq, ya da bağçaya çıxmaq istədikləri zaman uyğun ərazi tapa bilmirlər. Bundan əlavə, əgər mənzil yüksək mərtəbədədirsə, balkonlar və pəncərələr kiçik dostlarınız üçün təhlükə yarada bilər. Fərdi evə köçməyin üstünlüklərindən biri odur ki, siz ev heyvanlarınızın bağda sərbəst oynamasına icazə verə və onlara böyük yaşayış sahəsi təklif edə bilərsiniz.

- Səs-küyü sevməyənlərdənsinizsə, fərdi evin üstünlüklərindən istifadə edə bilərsiniz. Bağ evləri ümumiyyətlə daha sakit mühitlərdə yerləşir. Bu şəkildə, izdihamdan və səs-küydən uzaq, sakit bir həyat fürsəti təqdim edir.

- Mənzillərin ən böyük problemlərindən biri qonşulardır. Yuxarıda, aşağıda və ya yanınızda yaşayan qonşularınız bəzən narahat edici davranışlar göstərə bilərlər. Fərdi evlərdə belə problemə rast gəlinmir.

**Əmlak məsələləri üzrə ekspert Elnur Azadov:** "Türkiyədə baş verən zəlzələdən sonra insanların içində ciddi qorxu qalmışdı.



Xatırlayırsınızsa, yayda bizdə də çox zəif olan zəlzələ baş vermişdi. Bu zaman insanlar Türkiyədəki zəlzələni xatırlayıb vahiməyə düşmüşdü. Bu ərəfədə həyət evlərinin qiymətində artım oldu. Lakin bu dəfə ölkədə baş verən zəlzələni insanlar soyuqqanlı qarşıladılar. Yəni, ovaxtkı kimi böyük sıçrayış olmadı. O vaxtı bizdə hamı tökülüşdü küçəyə. Hətta şəhərdən qaçanlar belə var idi.

İndi isə qiymətlərdə artım olmadı. İndi qış mövsümüdür və insanlar qışda bağ (həyət) evlərinə o qədər də üstünlük vermir. Yəni, budəfəki zəlzələ qiymətlərə təsir etmədi. Təsir etsə belə bu müvəqqəti xarakter daşıyır və ümumi bazara təsiri olmayacaq".

*Ayşən Vəli*

ARAŞDIRMA

# Erməni vəhşiliyi bəşəriyyətin tarixinə ləkədir

Çox vaxtı Azərbaycan xalqı olaraq bəzi millətlərə, dövlətlərə qarşı həddindən artıq xeyirhaqlıq göstərməyimiz, yüksək formada hümanistlik nümayiş etməyimiz bizlər üçün acı nəticələr verib. Ürəyi genişliyimizdən istifadə edən məkrli qüvvələr, xüsusilə də ermənilər dövlətimizə və xalqımıza bəlalar yaşadıblar. Ümumilikdə türk milli varlığının daşıyıcısı olaraq qeyd etmək olar ki, bugünkü milli bəlalarımızın baş verməsində əcdadlarımızın da yanlış baxışlarının, addımlarının səhvləri olub desək səhv etmərik. Çünki fatehlərimizin gələcəyə hesablanmadan verdikləri qərarlar, atdıqları addımlar sonrakı mərhələdə ağır fəlakətlər yaradıb. Misal olaraq rus-türk müharibələrinin birində Rusiyanın hazırda böyük Pyotur kimi təqdim etdiyi qoşun başçısının əsir götürülməsi və sonradan buraxılmasından Osmanlı imperiyasının əziyyət çəkməsini göstərmək olar. Belə ki, 1696-cı ildə Odessa ətrafında gedən döyüşlərdə I Pyotor türk əsgərləri tərəfindən əsir götürülür. I Yekaterina türk generalına bir boyunbağı verərək Pyoturu azad etdirir. Bunu bilən Osmanlı sultanı boyunbağını əridərək həmin qızılı Yekaterinadan alan generalın boğazına tökdürür. I Pyotorun azad olunması türklərin başına bəla oldu. XVIII əsrdən XX əsrə (1920-ci ilə qədər) qədər türklərlə ruslar arasında 10 müharibə olub. I Pyotr əsir götürülənə qədər, yəni dörd döyüşdə türklər ruslara qalib gəlir. Amma ondan sonra baş verən altı müharibədə türklər məğlub olurlar. Yəni, buraxılmış bir səhv Türkiyəyə baha başa gəldi.








## Səhvlər milli faciələrə gətirib çıxarır

Eyni səhvləri Azərbaycan xalqının böyük sərkərdələri başqa formada təkrarlayıblar. Tarixi faktlara və əldə olunan yazışmalara istinadən demək olar ki, xalqımızın böyük sərkərdələri də zaman-zaman ermənilərin bölgəyə kütləvi şəkildə köçürülməsindən narahatlıqlarını ifadə etmişlər. XVI əsrin əvvəlində Rəvan xan Səfəvi şahı Şah İsmayıl Xətaiyə məktub göndərək qeyd edir ki, hazırkı fars-molla rejiminin nəzarət etdiyi ərazilərdən Azərbaycan torpaqlarına köçürülən ermənilərin sayının çoxalması bizə çoxlu sayda problem yaradacaq. Təəssüf ki, Şah İsmayıl Xətai Rəvan xanın xəbərdarlığını nəzərə almayıb. Bu kimi laqeydlik, etinasızlıq nəticə etibarı ilə Rəvan xanın da qeyd etdiyi kimi, sonrakı proseslərdə xalqımıza acılar yaşatdı. Bu azmış kimi 1507-ci ildə Osmanlı torpaqlarından və digər xarici ölkələrdən daha 10.000 erməninin İrəvan, Qarabağ daxil olmaqla Azərbaycanın digər ərazilərində yerləşməsinə izn verdi. Baş verən proseslər onu göstərdi ki, 5 əsr bundan əvvəl Rəvan xanın söylədiyi həmin xəbərdarlıqdan sonralar da nəticə çıxarılmadığından Azərbaycan xalqı çox ciddi bəlalarla üzləşməli oldu. İki əsr ərzində ermənilər 2 milyondan çox azərbaycanlını qətlə yetirib, on minlərlə yaşayış məskəni dağıdıb, yer üzündən silmişlər. Düzdür, burada böyük güclərin ermənilər göstərdiyi siyasi, hərbi dəstəkdə xüsusi rol oynayıb. Məhz xarici məkrli dairələrin dəstəyinə arxalanan ermənilər Cənubi Qafqaza köçürülüb, möhkəmləndikdən sonra azərbaycanlılara qarşı vəhşiliklər, soyqırım aktları həyata keçirmişlər. 1918-ci ilə qədər zaman-zaman ermənilər dövlət yaratmaq iddialarını reallaşdırmaq üçün səylər göstərdilər. Nəhayət, ermənilər Rusiyanın himayəsi və dəstəyi ilə İrəvan xanlığı ərazisində Ermənistan dövləti yaratdılar. İstəsək də və istəməsək də reallıq ondan ibarətdir ki, İrəvanın ermənilərə verilməsində 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ciddi səhvləri rol oynamışdır. Bunu sonrakı mərhələlərdə cümhuriyyət qurucuları da qeyd ediblər. 1919-cu il dekabr ayının 1-də Fətəli xan Xoyski Nəsib bəy Yusifbəyliyə bir teleqram ünvanlayır. Həmin teleqramda göstərilir ki, İrəvanı Ermənistana verməklə biz sərhəd məsələsini həll etmiş olduq və ermənilərlə bizim daha heç bir problemimiz olmayacaq. 1919-cu ildə İrəvan torpaqlarının arxasınca Dərələyəz, daha sonra isə Göyçə ermənilərə verildi.

## AXC-nin səhv, düşünülməmiş siyasəti Azərbaycan xalqının başına bəla oldu

Bir məsələni də xatırlatmaq lazımdır ki, 1918-ci ilin may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda Azərbaycanın ərazisi 114 min kv.km idi. Amma 1920-ci il aprel ayında Azərbaycan ərazisi 86 min kv.km oldu. Çox təəssüflər olsun ki, 1918-1920-ci illərdə ADC-nin bu cür buraxdığı səhvlər 1992-1993-cü illərdə AXC hakimiyyəti dövründə də təkrar olundu. XX əsrin sonlarında Azərbaycanın aran Qarabağ ərazisi ermənilər tərəfindən işğal olundu. Qeyd etmək lazımdır ki, ermənilərin aran Qarabağı işğal etmək niyyəti olmayıb. AXC hakimiyyətinin prosesləri düzgün qiymətləndirib, ondan düzgün nəticə çıxarmaması ermənilərin Qarabağı, daha sonra isə aran Qarabağı işğal etmələrinə gətirib çıxarmışdır. Yəni, bütün hallarda AXC-nin səhv, düşünülməmiş siyasəti Azərbaycan xalqının başına bəla oldu. XX əsrin 90-cı illərinin əvvəllərində hakimiyyətdə olan Xalq Cəbhəsi Qarabağ məsələsini beynəlmiləşdirməklə eyni səhvi təkrarlamış oldu. Bununla onlar Azərbaycana ən böyük bəla gətirdilər. Çox təəssüflər olsun ki, bu məsələ tarixçilərimizin də diqqətindən kənarda qalıb. Biz buraxdığımız səhvlərdən çıxarmadığımız nəticələrin bəlasına düşmüşük. Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılması, həmçinin, ermənilərin İran və Türkiyədən Rusiyanın işğal etdiyi torpaqlara köçürülməsi təsadüfi hal olmayıb. Beləliklə, ermənilərin köçürülməsi ilə adları çəkilən ərazilərin etnik tərkibi dəyişdirilməyə başladı. 1823-cü ilin məlumatına görə, Qarabağ vilayətinin (keçmiş Qarabağ xanlığının ərazisi) 20 minə yaxın ailəsindən cəmi 1,5 minini erməni ailəsi təşkil edirdi. Köçürmədən sonra əhalinin etnik tərkibi kəskin şəkildə dəyişir.

## Erməni separatizminin əsası iki yüz il əvvəl qoyulub

1832-ci ildə azərbaycanlılar Qarabağ əhalisinin 64,8 %, ermənilər isə 34,8% təşkil etmişdir. Rusiya bu siyasəti məqsədyönlü şəkildə dəyişməklə davam etdirilməyə başladı. XIX əsrin 80-ci illərində Şuşa qəzasında əhalinin milli tərkibində azərbaycanlılar 41,5%, ermənilər isə 58,2% oldu. Rusiyada əhalinin 1897-ci il siyahıya alınmasına görə, bu rəqəmlər 45 və 53%, 1917-ci ildə isə 40,2 və 52,3% olmuşdu. 1918-1920-ci illərdə Ermənistan Respublikasının törətdiyi azərbaycanlı qırğınları Qarabağı da əhatə etmişdi. 1923-cü ildə isə Dağlıq Qarabağ Muxtar Respublikasını təşkil edərkən tarixi ədalətsizliyə yol verildi, Qarabağın dağlıq və aran hissəsi süni şəkildə bir-birindən ayrıldı, erməni əhalisinin konsolidasiyası üçün əlverişli şərait yaradıldı, azərbaycanlıların demoqrafik mövqeyinə ciddi zərbə vuruldu. XX əsrin 20-60-cı illərində yəni, 1926, 1959, 1970, 1979-cu illərdə keçirilmiş siyahıya almalara görə DQMV-nin azərbaycanlı və erməni əhalisi müvafiq olaraq 10,1 və 89,1%"; 13,8 və 84,4%; 18,1 və 80,5%; 23,0 və 75,9% olmuşdur. Qarabağ ermənləri 1978-ci ildə köçürülmələrinin 150 illiyini qeyd etmiş, bu münasibətlə Mardakert - Ağdərə rayonunun Marağaşen - Leninavan kəndində xüsusi abidə qoymuşdular. Ermənilərin köçürüldüyü qeyd edildiyi kimi, həm Rusiyanın, həm də Ermənistanın siyasi mənafeləri ilə bağlı olmuşdur. Minlərlə erməni hər iki dövlətin bu fitnəkar siyasətinin düşünülmüş qurbanı olmuşdur. İqtisadi mənafe ilə bağlı olan məsələlərdə çox pərgar olan ermənilər bu siyasi oyunların acınacaqlı nəticələrindən dərs ala bilməmiş, Rusiya və Ermənistan liderlərinin onlar üçün müəyyən etdiyi fitnə və xəyanət rolunu həmişə canla-başla və amansızlıqla yerinə yetirmiş, hər dəfə də bu əməllərin qanunauyğun nəticəsi kimi milli məğlubiyyət və faciəyə düçar olmuşlar. Bu fitnəkarlığın başlıca obyekti olan Türkiyə və Azərbaycan müəyyən çətinliklərə baxmayaraq həmişə bu imtahandan uğurla çıxmışdır. Artıq erməni separatizminə son qoyulub. 2020-ci il Azərbaycan tarixində şanlı, qızıl hərflərlə yazılan tarixi səhifə oldu. 2020-ci ildə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz böyük qələbəni Azərbaycan xalqına bəxş etdi. Artıq separatçı hərəkətləri və terrorçu əməlləri ilə millətimizə meydan oxuyan Artunyan, Vardanyan, Qukasyan, Saakyan və digər soyqırımı aktları törədənlər cəngavər oğullarımız tərəfindən həbs ediliblər və əlləri qandallı Bakıya gətirilərək istintaqa təhvil veriliblər. Onların ən ağır cəzanın gözlədiyi şübhəsizdir. Lakin bu, yetərli olmamalıdır. Xocalıda uşaqları öldürən, ailələri məhv edən Koçaryan və Sarkisyanda məhkəmə qarşısına çıxarılmalıdır. Əminəm ki, günün birində o cəlladlar da həbs ediləcək və Azərbaycanın istintaq orqanlarına təslim olunacaqlar. Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tanıdılması istiqamətində fəaliyyət daha da gücləndirilməlidir. Aparılan təbliğat informasiya müharibəsi səviyyəsindən çıxaraq hüquqi müstəviyə keçməlidir.

**İLHAM ƏLİYEV**



# Gənclərə dövlət qayğısı: dünən və bu gün

## Heydər Əliyevin gənclər siyasəti necə idi, gənclərdən nə gözlənilirdi?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb*











Hər bir xalq, o cümlədən Azərbaycan xalqı üçün mühüm tarixi nailiyyət dövlətinin müstəqilliyidir. Bir xalqın tarixində bunu əldə etməkdən böyük hadisə yoxdur. Müstəqil dövlətçilik Azərbaycanın çoxəsrlik tarixində ən böyük hadisədir. XX əsrin əvvəllərində Azərbaycanda əldə edilən ilk dövlət müstəqilliyi bütün türk-müsəlman dünyasının tarixində dönüş nöqtəsi yaratdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli müstəqilliyinin acı taleyi müstəqilliyi əldə etməkdənsə, onu qoruyub saxlamağın və möhkəmləndirməyin daha vacib olduğunu bariz şəkildə göstərdi.

Azərbaycan xalqı üçün ikinci dəfə dövlət müstəqilliyinə nail olmaq şansı yenə itirilə bilərdi, lakin ideoloji lider, böyük tarixi şəxsiyyət və görkəmli dövlət xadimi Heydər Əliyev zamanında müdaxilə edərək müstəqilliyimizi əldən verməməyimizə var gücü ilə çalışdı. Ümummilli lider ikinci dəfə hakimiyyətə gəldikdən sonra onun fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqətin artırılması oldu. Yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi, gənclərin sosial-iqtisadi siyasətdə fəal iştirakının təmin edilməsi prosesi start götürdü. Respublikamızın ictimai-siyasi həyatı, gənclərin sosial-mənəvi tələbatlarının ödənilməsi, onların formalaşması və layiqli vətəndaş kimi formalaşması üçün əlverişli şərait yaradılması üçün bu mühüm idi.

Əslində, 90-cı illərin əvvəllərində, SSRİ-də yeganə gənclər təşkilatı olan komsomolun fəaliyyəti dayandırıldıqdan sonra gənclər mənəvi boşluğa, böhrana düşdülər. Çay evlərində gün keçirən, bekar gəzən gənclər ordusunun yaranma təhlükəsi hiss olundu. Amma müstəqilliyin ilk illərində ictimai-siyasi fəallıq gənclərdən də yan keçmədi, meydanlarda, mitinqlərdə çox sayda gənc görünürdü. Gənclərin prinsip, mənəvi dəyər, həyata baxışlar sistemi formalaşmağa başladı, yeni müstəqil gənclər təşkilatları yaradılmağa başladı. Bu da təbiidir, çünki gənclik xalqın ümidi, onun inkişaf və tərəqqisinin əsas meyarı və barometridir, hər bir cəmiyyətin maddi və mənəvi tərəqqisi bilavasitə gənclər siyasətinin düzgün qurulmasından, təşkilindən və aparılmasından, sosial-mənəvi tərəqqidən asılıdır.

Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərliyi dövründə təhsilin inkişafına, xüsusilə, böyük əhəmiyyət verirdi. Onun rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması respublikada böyük intellektual baza yaratdı.

Ulu öndər gənc nəslin əxlaqi tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirir, gənclərə ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən və hərtərəfli öyrənməyi və mənimsəməyi tövsiyə edirdi. O deyirdi ki, gənclər milli dəyərləri, milli adət-ənənələri, dili, dini və tarixini bilməyən və mənimsəməyənlər vətənpərvər ola bilməzlər. O deyirdi: "Vətənpərvərlik təkcə hərbi xidmət deyil, Vətənə sadiq olmaq, doğma torpağı sevmək, onu müdafiə etməyi bacarmaq deməkdir. Vətənpərvərlik budur".

Həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, yeni ali və orta ixtisas məktəbləri açılmışdı. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdı.

Həmin dövrdə Azərbaycanın əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması idi. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdu. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdı.

Ümummilli lider Elmlər Akademiyasının genişləndirilməsi və inkişafına xüsusi fikir verirdi. Nəticədə, respublikada çox sayda elmi işçilər, böyük alimlər yetişdi. Azərbaycan Sovet Ensiklopediyasının nəşr olunması isə onun Azərbaycan elmi qarşısında ən böyük xidmətlərindən idi ki, bu gün də həmin Ensiklopediya ən qiymətli elmi xəzinə sayılır. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanda ali hərbi məktəblərin açılması isə milli hərbçi kadrların hazırlanmasında çox böyük bir iş idi. Bu məktəblərdən böyük generallar, hərbi mütəxəssislər yetişdi və onlar 1-ci Qarabağ müharibəsində Azərbaycan Ordusunun özəyini təşkil etdilər. Heydər Əliyevin Sovet dövründə yeni mərhələyə qədəm qoyan ölkəsi, doğma xalqı qarşısında ən böyük və misilsiz xidməti o idi ki, Azərbaycan 1991-ci ilin sonunda İttifaqdan ayrılıb müstəqilliyini elan etdiyi vaxt respublikamız əvvəlcədən hazırlanan həmin kadrların sayəsində artıq müstəqil bir dövlət kimi yaşamağa tam hazır idi.

Azərbaycanda dövlət gənclər siyasətinin parlaq göstəricilərindən biri də ölkəmizdə gənclər hərəkatının, o cümlədən qeyri-hökumət təşkilatlarının (QHT) inkişafıdır. Bu, vətəndaş cəmiyyətinin mühüm amillərindən biridir. Zaman ötüb keçdikcə gənclər ölkəmizin ictimai strukturların inkişafında, demokratik dəyərlərin formalaşmasında daha çox iştirak edirlər. Bütün sahələrdə gənc nəfəs hiss edilir. Prezident İlham Əliyev də Ümummilli liderin yolunu davam etdirir, idarəetmədə gənclərə yol açır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
13 dekabr
2023-cü il

# Bu il qəbul imtahanları hansı tarixdə olacaq?



"Buna birmənalı olaraq cavab vermək mümkün deyil. Çünki bu aidiyyəti qurumlardan DİM və Elm və Təhsil Nazirliyinin birgə razılaşması əsasında qəbul olunan qərardan asılı olacaq. Amma əvvəlki illərin təcrübəsinə baxsaq, görərik ki, DİM tərəfindən qəbul imtahanları iki cəhddə aparılır. Birinci cəhddə olan imtahanlar adətən may ayının ikinci yarısından başlayaraq keçirilir. Birinci cəhd imtahanlar əsasən may ayının sonu, iyun ayının əvvəli baş tutur". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov deyib.

İlqar Orucov sözlərinə belə davam edib: "İkinci cəhd imtahanlar isə təxminən iyul ayında keçirilir. Mən güman etmirəm ki, imtahanların vaxtında ciddi dəyişiklik olacaq. Amma xüsusilə buraxılış imtahanlarının ertədən keçirilməsi bəzən cəmiyyətdə narazılıq doğurur. Çünki buraxılış imtahanları daha çox tədris ili başa çatmamış həyata keçirilir. Narahatedici məqamlar da bir çox hallarda bununla bağlı olur. Yəni, imtahanlar keçirilinə qədər mövzular imtahana salınır. Burada ciddi bir əsas yoxdur. Zatən tam orta məktəblərdə buraxılış imtahanına salınan suallar şagirdin həmin müddətə qədər keçdiyi proqram əsasında tərtib olunub. Qəbul imtahanındakı suallar isə bütün tədris proqramını əhatə edir. Ümid edirəm ki, tarixlə bağlı bu il dəyişiklik olmayacaq və əvvəlki illərdəki ənənələrlə davam ediləcək. Amma yekun söz yenə də aidiyyəti qurumlara məxsusdur".

**Ayşən**


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Ronaldo və Messi yenidən üz-üzə!



Məşhur futbolçu Lionel Messinin də formasını geyindiyi "İnter Mayami" Futbol Klubu mövsümöncəsi matçlarını Səudiyyə Ərəbistanında keçirəcək. QOL.az xəbər verir ki, komanda orada iki yoxlama matçı oynayacaq. "İnter Mayami" yanvarın 29-da "Əl-Hilal"la, fevralın 1-də isə Kriştiano Ronaldonun da çıxış etdiyi "Əl-Nəsr"lə qarşılaşacaq. Maraqlıdır ki, Lionel Messi və Kriştiano Ronaldo yenidən bir-birləri ilə görüşə bilərlər.

Qeyd edək ki, Messi 2023-cü ilin yayından "İnter Mayami"də çıxış edir. Onun klubla müqaviləsi 2025-ci ilə qədərdir. Ronaldo isə 2023-cü il yanvarın 1-dən "Əl-Nəsr"in oyunçusudur. Portuqaliyalının klubla müqaviləsi 2025-ci ilə qədərdir.



# Psixoloqa gedənləri niyə dəli adlandırırlar?

*PSİXOLOQ MÜNASİBƏT BİLDİRDİ*

"İnsanlarımızın əksəriyyəti psixologiya elminə və psixoloqa o qədər də müsbət baxmır. Psixoloji pozğunluqlar ölkəmizdə əksər insanlar üçün dəliliklə sinonimdir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Ruslan Kamilov deyib. Psixoloq sözlərinə belə davam edib: "Psixoloji pozğunluğunuz varsa, "dəlisiniz". Psixoloji xidmətlərdən yararlanan və ya psixatrın yazdığı dərmanlardan istifadə edənlərə o qədər də müsbət baxılmır. Psixiatra, psixoloqa və ya psixoterapevtə getmək dəli həkiminə getmək deməkdir düşüncəsinə qapılırlar və bu xidmətə üz tutanlar kimsənin eşitməməsi üçün əllərindən gələni edirlər, ya da heç cəhd etmirlər. Günümüzdə bəzi insanlar bu xidmətin faydalarından yararlansa da yenə də böyük əksəriyyəti hələ də bu düşüncə ilə hərəkət etdiyi bir həqiqətdir. Lakin xalqımızın "dəlilik" anlayışının əhatə dairəsi son dərəcə genişdir və onun nə olduğu çox aydın deyil. Əslində, dəli deyəndə kimə və nəyi dəli adlandırdığımızı həqiqətən bilmirik. Bu söz dilimizdə tərif kimi deyil, insanları qaralamaq üçün işlənir. Məsələn, bizimkilərə görə şizofreniya da dəlidir, depressiyada olanda dəlidir, təşviş pozğunluğu olan da dəlidir, əqli qüsuru olan fərd də dəlidir. Bir sözlə, gördüyünüz kimi, əsası olmayan və "normal insan" tərifindən kənara çıxan hər kəs dəlidir . "Dəli" sözünün lüğət mənası belədir: "ağlını itirmiş, əqli tarazlığı pozulmuş". Bu tərifə görə insana dəli demək üçün ağlını itirmiş olmalıdır. Bir sual verək: ağlını itirmək nə deməkdir? Bu son dərəcə qeyri-müəyyən və boş bir tərifdir. Əslində deyilən budur: "Hər kəs" kimi olmayan, "hamı" kimi düşünməyən və davranmayan insanlar dəlidir. Buradakı "hamı" sözü cəmiyyətimizin fərdi psixologiyası kontekstində "normallığın" sərhədlərini müəyyən edir. Daha doğrusu, "normal insan" anlayışının əsasını təşkil edir. Bu həddən kənara çıxanlar təbii olaraq "normal olmayanları" təşkil edir. Yəni çılğın insanlar. Həyat günü-gündən mürəkkəbləşdikcə insanların psixologiya və psixoloji pozğunluqlarla qarşılaşma şansları da artır. Müasir həyat indi insanları gündəlik həyatın ayrılmaz hissəsi kimi dəli kimi etiketləməsinə səbəb olan faktlarla qarşılaşır. İnsanların heç vaxt mənim başıma gəlməyəcəyini söylədiyi şeylər həyatlarının ayrılmaz hissəsi oldu. Qonşularının universitetə hazırlaşan uşağı depressiyaya düşəndə o uşağa "dəli" damğası vuranlar, öz övladları universitetə hazırlıq dövrünə qədəm qoyanda, bir vaxtlar dedi-qodu etdikləri və kiçik hesab etdikləri acı həqiqətlə qarşılaşırlar. İş tapa bilmədiyi üçün dəli olduğunu düşündükləri tanışlarının "dəlixana"ya düşəcəyini təxmin edənlər, təəssüf ki, bir gün özləri də işsiz qalanda və işə başlayanda hara düşəcəklərini eyni dəqiqliklə proqnozlaşdıra bilmirlər. Psixiatr, psixoloq və ya psixoterapevt axtarırlar. Yəni əvvəllər psixoloji pozğunluğu olan insanlara çəkinmədən dəli damğası vuranlar indi hər an dəli damğası alacaq vəziyyətdədirlər. Bunu taleyin qəribə bir döngəsindən başqa nə adlandırmaq olar? Siz mənə deyin

Hər şey bir yana, kim nə deyir desin, psixologiya bir elm olaraq bizə əvvəlkindən daha yaxındır, əvvəlkindən daha çox ehtiyacımız var. Bunu rahatlıqla deyə bilərik: psixologiya bir gün hər kəsə lazım olacaq! Psixoloji pozğunluğunuz varsa, dərhal dəli olub-olmadığınızdan narahat olmayın. Əvvəlcə bir mütəxəssislə məsləhətləşin. Və bunu unutmayın: Dəli olmaq o qədər də asan deyil!".

**A.Vəli**

## BAŞSAĞLIĞI

Məmmədhəsən və oğlanları Vüqar, Elçin, Elvin Məmmədovlar, Ramin və Süleyman Məmmədov qardaşları Dilsuz və Dilqəm Dəmirçiyevlərə ataları

**Kazım müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000